10 avqust 2018-ci il
№30 (8796)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

**6 ayda "Web of Science" bazasında 132 məqalə** ⇨səh.2

**Riyaziyyatdan dərs nümunəsi** ⇨səh.4

**Bilik Fondu - ali məktəb tələbələrinin təcrübə məkanı** ⇨səh.5

**Müəllimlə ünsiyyət** ⇨səh.7

# Gələcək "ASAN peşə" ilə asanlaşacaq

## Peşə təhsili əmək bazarında həlledici faktora çevrilir



Məlumdur ki, qloballaşan dünyanın tələb və çağırışları bu gün əmək bazarında da öz korrektələrini verməkdədir. Yeni peşələr, buna uyğun olaraq da yeni əmək şəraiti formalaşır. Bu şəraitdə işləyəcək yüksək ixtisaslı, səriştə və bacarıqlara malik kadrların hazırlığı isə, ilk növbədə, peşə təhsilinin üzərinə düşür. Buna görə də yeni dövrün trendləri özünü təhsilin bütün sahələri kimi peşə təhsilində də göstərməkdədir. Əmək bazarının sürətlə dəyişən tələblərinə və meyillərə uyğun olaraq ölkəmizdə peşə təhsili sahəsində kadr hazırlığı günün tələbləri səviyyəsinə qaldırılıb. Ölkə iqtisadiyyatının davamlı inkişaf templərinin təmin olunması əmək bazarının günün tələblərinə adekvat olaraq formalaşmasını zərurətə çevirib. Hazırda dünya əhalisinin 70 faizdən çoxu peşə təhsilinin verdiyi imkanlardan bəhrələnməkdədir. Ölkə rəhbərliyi tərəfindən islahat proqramlarının, peşə təhsili və peşə təliminə dair strateji yol xəritələrinin təsdiq olunması, güclü infrastruktura malik müasir peşə təhsil mərkəzlərinin yaradılması sayəsində vətəndaşlarımızın da bu sahəyə marağı güclənməkdədir. Bunun əyani nümunəsi kimi avqustun 6-dan ölkəmizdə 2018-2019-cu tədris ili üzrə "ASAN peşə" layihəsi çərçivəsində dövlət peşə təhsili müəssisələrinə sənəd qəbuluna başlanılmasını və bu prosesin yüksək səviyyədə keçdiyini söyləmək olar.

⇨Ardı səh.2

# Ali təhsilsiz varlılar

## Dünyaca məşhur milyarderlərin bəzilərinin diplomu yoxdur

"GoCompare" sığorta şirkəti "Forbes" jurnalının son 20 ildə elan etdiyi dünyanın ən varlı 100 nəfərinin təhsil səviyyəsinə dair araşdırma aparıb. Məlum olub ki, milyarderlərin 76%-nin ali təhsili var. Onların 47%-i bakalavriatı, 23%-i isə magistraturanı bitirib. 6%-i fəlsəfə doktorudur (PhD). Buradan belə bir nəticə çıxır ki, dünyanın ən varlılarının dörddə biri ya ali məktəbdə oxumayıb, ya da diplom alanadək universiteti tərk edib. 100 ən varlı şəxs arasında iqtisadiyyat və mühəndislik işi üzrə ali təhsil almışlar daha çoxdur. Eyni zamanda, dəqiq elmlər üzrə oxumuş milyarderlər humanitar sahələri bitirmiş varlılardan daha çoxdur.

### "Tələbə anbarı"

Xatırlayırsınızsa, bir ara belə bir şikayət məzmunlu iddianı tez-tez eşidərdik: "Uşağı oxutmaqdansa ticarətə və ya sənətə qoysaydım, daha yaxşı olardı. Kimə lazımdır axı onun diplomu?!". İndi vəziyyət təbii ki, dəyişib, tək diplomun yox, hansı ali məktəbin verdiyi diplomun nə qədər önəm kəsb etdiyi bir reallıqda yaşayırıq. Ancaq qəti şəkildə inad da edə bilmərik ki, yuxarıda qeyd etdiyimiz həyat fəlsəfəsi ilə yaşayanlar yoxdur və ya onların sayı azalıb.

"Diplom nəyə lazımdır" deyənlər tək bizimlə eyni cəmiyyətdə yaşamırlar. Dünyanın hər yerində belə düşünənlər mövcuddur. Maraqlısı odur ki, diplom və ali təhsilin lazımsız zəhmət və vaxt itkisi olduğunu düşünənlər arasında həmin o dünyanın ən varlıları da var.

RİÇARD Brenson - "Virgin Group" korporasiyasının təsisçisi. Ali təhsili yoxdur, ancaq 5,1 milyard dolları var. Təhsili 16 yaşında atıb. Disleksiyadan əziyyət çəkirmiş, məktəbdə aşağı qiymətlər alırmış. Brenson "Məni ən çox qıcıqlandıran diplomun alınmasına nə qədər vaxt və vəsaitin sərf olunmasıdır" desə də, Britaniyanın ən varlı şəxslərindən biridir. O, özünün "Virgin tərzli biznes. Biznes-məktəblərdə sizə nələri öyrətmirlər" adlı kitabında ali məktəblərdə təhsil müddətinin ən azı bir il azaldılmasını təklif edir. Brenson hesab edir ki, bu, gənclərə real həyatda addımlamaq və təcrübə qazanmağa yeni imkanlar açacaq. Milyarder müasir ali məktəbləri "Tələbə anbarı" adlandırır. Brenson yazır: "İcazə verin bir daha xatırladım ki, mən bu məsələdə ekspert deyiləm. Ancaq bir praqmatik kimi anlaya bilmirəm, nəyə görə 100 həftəlik təhsil müddətini 3-4 ilə bölürsünüz? Halbuki bunu 80 həftə edib tələbənin istəyinə uyğun olaraq 2-3 ilə bölə bilərsiniz".

⇨Ardı səh.3

# Təhsil Nazirliyi Çinə 23 tələbə göndərir

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında uğurlu əməkdaşlığın nəticəsi olaraq 23 Azərbaycan vətəndaşı 2018-2019-cu tədris ili üzrə Çin Xalq Respublikasının nüfuzlu universitetlərində təhsil almaq imkanı qazanıb.

Çin Xalq Respublikası tərəfindən verilən yekun qərar nəticəsində 23 nəfər bu ölkənin "Peking University", "Beijing Normal University", "University of Science and Technology Beijing", "Central China Normal University", "Shanghai University of Finance and Economics", "Fudan University", "Harbin Engineering University" kimi ali təhsil müəssisələrində logistika, proqramlaşdırma, ekologiya və mülki mühəndislik, biotexnologiya, ali təhsilin pedaqogikası, beynəlxalq münasibətlər, hüquq, iqtisadiyyat və idarəetmə ixtisasları üzrə bakalavriat (4 nəfər), magistratura (17 nəfər) və doktorantura (2 nəfər) səviyyələri üzrə təhsil almaq hüququ əldə edib.

# Milli hökumət təhsili milliləşdirdi

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının milli dövlətçilik və özünüdərkinin inkişafı tarixində misilsiz bir hadisədir. Onun mövcudluğu millətin bütün sosial qatlarında sevinclə duyulmuş, fəaliyyəti cəmiyyətin bütün təbəqə və qurumlarına, milli həyatın hər sahəsinə nüfuz etmişdi. Milli hökumət təhsilin inkişaf etdirilməsi üçün sistemli və məqsədyönlü iş aparırdı.

Yeni dövlətin yaranması ərəfəsində təhsildə vəziyyət ürəkaçan deyildi: 1914-cü ildə ölkədə 976 məktəbdə 73 mindən artıq şagird təhsil alırdısa, 1918-ci ildə 660-dan artıq məktəbdə 48078 şagird oxuyurdu. Belə şəraitdə məktəb sisteminin dağılmasının qarşısını almaq milli hökumətin qarşısında mühüm vəzifə kimi dururdu.

Milli hökumət təhsildə ilk iş olaraq 1918-ci il mayın 28-də Xalq Maarif Nazirliyini yaratdı. Nazirlər Şurasının 1918-ci il 30 iyun tarixli qərarı ilə üç şöbədən (ümumi orta təhsil, ali və orta ixtisas təhsili, peşə məktəbləri) ibarət strukturu təsdiq olundu. İlk üç hökumət kabinetində maarif naziri Nəsib bəy Yusifbəyli, dördüncü hökumət kabinetində Rəşid bəy Qaplanov, beşinci hökumət kabinetində isə Həmid bəy Şahtaxtinski və Nurməhəmməd bəy Şahsuvarov olmuşdur.

Ardınca 1918-ci il 27 iyun tarixli fərmanı ilə Azərbaycan dili dövlət dili elan olundu. Təhsili xalqın mənafeyinə uyğun qurmaq yolunda ən vacib addımlardan biri 1918-ci il 28 avqust tarixli qərarı ilə təhsilin milliləşdirilməsi oldu. Bütün ibtidai tədris müəssisələrində dərslərin Azərbaycan dilində aparılması məcburi sayılırdı. Azərbaycan dilini bilməyən şagirdlərə intensiv şəkildə Azərbaycan dili tədris olunmalı idi.

Milliləşdirmə zamanı Azərbaycanda yaşayan digər xalqların da mənafeyi nəzərdə tutulur, onların təhsil almaq hüququ dəstəklənirdi. Hökumətin 1918-ci il 7 sentyabr tarixli qərarı ilə sinifdə başqa millətdən olan şagirdlərin sayı 10 nəfərdən az olmadıqda onlara öz dillərində ana dili və ilahiyyat keçilməli idi. Yəhudi Milli Şurası nəzdində fəaliyyət göstərən məktəblərdə 700 nəfərin təhsili ilə 24 müəllim məşğul olurdu. Bu məktəblərə hər ay dövlət tərəfindən 10 min manat ayrılırdı. Keçmiş alman koloniyalarında fəaliyyət göstərən məktəblərdə işləyən müəllimlərin hər birinə hər ay 90 manat ödənilirdi.

Məktəblərin dəstəklənməsində özəl təşəbbüslər də rol oynayırdı. Hacı Zeynalabdin Tağıyevə məxsus fabrik qızlar məktəbinə aztəminatlı məktəblilər arasında bölüşdürülmək üçün 400 arşın parça təqdim etmişdi.

Milliləşdirmənin gedişində bəzi çətinliklər qarşıya çıxırdı. Azərbaycan dilini bilməyən şagirdlərin çoxu kənarda qalırdı. Hökumət təhsil haqqındakı əvvəlki qərarlara düzəlişlər etdi. Yuxarı siniflərdən başlayaraq paralel siniflərdə rus bölməsi açılırdı.

⇨Ardı səh.4

# Məktəbəhazırlıq qruplarına sənəd qəbulu başlayır

Avqustun 15-dən respublika üzrə ümumi təhsil müəssisələrində məktəbəhazırlıq qruplarına sənəd qəbulu başlayır.

Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan, Naftalan şəhərlərində, Abşeron, Yevlax, Samux rayonlarında yerləşən ümumtəhsil müəssisələri üzrə məktəbəhazırlıq qruplarına sənəd qəbulu elektron qaydada- mektebeqebul.edu.az saytı vasitəsi ilə həyata keçiriləcək.

Məktəbəhazırlıq qruplarının yaradılmasında məqsəd 5 yaşlı uşaqların məktəb təliminə hazırlığı ilə əlaqədar psixoloji dayanıqlığını artırmaq, əhatə olunduqları aləmə və təhsil mühitinə uyğunlaşdırmaq, onların ünsiyyət və birgə fəaliyyət bacarıqlarına yiyələnməsini təmin etməkdir.

Məktəbəhazırlıq qrupları üçün tələb olunan sənədlərə uşağın şəxsiyyətini təsdiq edən sənədin əsli və surəti (uşağın şəxsiyyət vəsiqəsi olmadığı halda doğum haqqında şəhadətnaməsi), uşağın mübadilə vərəqi (sağlamlıq haqqında arayış-forma 26U), 2 (iki) ədəd 3x4 sm ölçüdə rəngli fotoşəkil və məktəb direktorunun adına ərizə (qəbulu elektron sistem vasitəsilə həyata keçirilən rayon və şəhərlərdə valideynin (qanuni nümayəndənin) *www.mektebeqebul.edu.az* saytında yaradılmış "Şəxsi Kabinet"indən çap olunmuş "Ərizə" daxildir. Azərbaycanda vətəndaşlığı olmayanlardan isə əlavə olaraq müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsi (olduğu təqdirdə), Birləşmiş Millətlər Təşkilatının Qaçqınların İşləri üzrə Ali Komissarlığının Himayə Sənədi, xarici doğum haqqında şəhadətnamə (Azərbaycan dilinə tərcümə olunmuş variantda) tələb olunur.

⇨Ardı səh.3



# Süni intellekt ev tapşırıqlarını yoxlayır

## Gradescope 2.75 milyon dollar investisiya alıb

Səh.7

## RƏSMİ XRONİKA



■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Bəhreyn Krallığının, Şri-Lanka Demokratik Sosialist Respublikasının, Koreya Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib.

■ Avqustun 8-də ölkə başçısı İlham Əliyev Bakı şəhərində avtobus parkının yenilənməsi haqqında sərəncam imzalayıb.

■ Prezident İlham Əliyev avqustun 7-də Ordubad Su Elektrik Stansiyasının tikintisinin davam etdirilməsi, Təzəpir məscidi kompleksində təmir-bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncamlar imzalayıb.

■ Avqustun 6-da dövlət başçısı İlham Əliyev Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və liman ərazisində sərnişin terminalının tikintisi haqqında sərəncam imzalayıb.

■ Azərbaycan Prezidenti İlham Əliyev avqustun 6-da Sinqapur Respublikasının Prezidenti xanım Həlimə Yaquba ölkəsinin milli bayramı münasibətilə təbrik məktubu ünvanlayıb.

■ Ölkə başçısı İlham Əliyev avqustun 6-da İndoneziya Respublikasının Prezidenti Coko Vidodoya ölkəsində baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı verib.

■ Avqustun 4-də dövlət başçısı İlham Əliyev Samux rayonunun Yenikənd-Köbər-Qaraağaclı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 4-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə "Mi-8" helikopterinin Krasnoyarsk diyarında qəzaya uğraması nəticəsində insan tələfatı ilə əlaqədar başsağlığı verib.

■ Avqustun 3-də Prezident İlham Əliyev Məhərrəm Paşa oğlu Qasımlının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

■ Ölkə başçısı İlham Əliyev avqustun 3-də Sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri haqqında sərəncam imzalayıb.

## Təhsil naziri Qazax şəhərində vətəndaşları qəbul edəcək

**Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy rayon sakinlərinin nəzərinə!**

Təhsil naziri Ceyhun Bayramov 13 avqust 2018-ci il tarixində saat 10:00-da Qazax şəhərindəki Ədəbiyyat Muzeyində mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy rayon sakinlərini qəbul edəcək. Qəbulda Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qeydiyyatdan keçmiş vətəndaşlardan xahiş olunur ki, qəbula gələrkən aidiyyəti məsələləri dolğun ifadə edən ərizə ilə müraciət etsinlər.

## 6 ayda "Web of Science" bazasında 132 məqalə

Bu ilin ilk 6 ayı ərzində Bakı Dövlət Universitetinin (BDU) alimləri tərəfindən Clarivate Analytics (əvvəlki Thomson Reuters) informasiya agentliyinin bazasına daxil olan jurnallarda 132 məqalə çap etdirilib. Həmin müddət ərzində universitet alimləri tərəfindən çap etdirilmiş məqalələrə 854 dəfə (yalnız 2018-ci ildə çap edilmiş məqalələrə 26 dəfə) istinad olunub.

Qeyd edək ki, Clarivate Analytics agentliyinin rəsmi məlumatına əsasən, ötən il Web of Science bazasına daxil olan nəşrlərdə BDU alimləri tərəfindən 243 məqalə çap etdirilib, bu məqalələrə 1249 dəfə (yalnız 2017-ci ildə çap edilmiş məqalələrə 264 dəfə) istinad olunub.

## Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin məzunları UNEC-də

"UNEC-i tanı" layihəsi çərçivəsində bu ili məktəbə abituriyentlərin səfəri davam edir. İxtisas seçimləri dövründə UNEC-də 400-dən artıq abituriyentlə görüş keçiriləcək, onlara ixtisas seçimində dəstək göstərilib, universitet barədə ətraflı məlumat verilib.

Layihənin budəfəki iştirakçıları Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin məzunları olub. Liseyin II ixtisas qrupu üzrə 600-dən yüksək bal toplayan abituriyentləri UNEC-in beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Anar Rzayevlə görüşüblər.

Görüş zamanı abituriyentlərə UNEC-in xüsusi təqaüd, xarici universitetlərlə ikili diplom, UDİD və beynəlxalq mübadilə proqramları barədə ətraflı məlumat verilib. Bildirilib ki, 600-dən yüksək bal toplayanlar UDİD proqramına 50% güzəştlə qoşulacaqlar. Beynəlxalq İqtisadiyyat Məktəbində təhsil almaq istədiklərini bildirən abituriyentlər UNEC-in tələbələri üçün yaratdığı imkanları maraqla qarşılayıblar.

# Gələcək "ASAN peşə" ilə asanlaşacaq

## Peşə təhsili əmək bazarında həlledici faktora çevrilir

⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**

### Vətəndaş məmnunluğu

Məlumdur ki, cəmiyyət həyatının ümdə maraqlarına cavab verən hər bir yeni fəaliyyət sahəsində vətəndaş məmnunluğu mühüm əhəmiyyət kəsb edir. Bu özünü "ASAN peşə" layihəsində də göstərir. Peşə Təhsili üzrə Dövlət Agentliyinin peşə təhsili müəssisələrinin idarə edilməsi, keyfiyyətin təminatı və monitorinq şöbəsinin müdiri Amil Əlilinin sözlərinə görə, Təhsil Nazirliyi və "ASAN xidmət"in birgə əməkdaşlığı çərçivəsində 2016/2017-ci tədris ilindən reallaşdırılan "ASAN peşə" layihəsinin əsas məqsədi peşə təhsili müəssisələrinə sənəd qəbulu prosesində vətəndaşların rahatlığının təmin olunması və subyektiv amillərin qarşısının alınması, obyektivliyin təmin edilməsi ilə bağlıdır.

Təhsil Nazirliyi və "ASAN xidmət"in birgə həyata keçirdiyi "ASAN peşə" layihəsi çərçivəsində dövlət peşə təhsili müəssisələrinə ərizə qəbulu "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində ödənişsiz formada elektron qaydada həyata keçirilir. Ərizə qəbulu üçün şəxsiyyət vəsiqəsi və təhsil haqqında sənəd (şəhadətnamə və ya attestat) tələb olunur.

Bakı, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu üzrə peşə təhsili müəssisələrinə dövlət və ödənişli əsaslarla qəbul yalnız "ASAN xidmət" tərəfindən həyata keçirilir. Mingəçevir şəhəri, Bərdə, Masallı, Sabirabad, Quba və Qəbələ rayonları üzrə peşə təhsili müəssisələrinə dövlət hesabına qəbul müvafiq "ASAN xidmət" mərkəzlərində aparılır.

"ASAN xidmət" mərkəzlərinin fəaliyyət göstərmədiyi şəhər və rayonlar üzrə dövlət peşə təhsili müəssisələrinə sənəd vermək istəyən şəxslərə gəlincə, onlar istənilən "ASAN xidmət"lə yanaşı müvafiq təhsil müəssisələrinə müraciət edə bilərlər. Bununla əlaqədar vətəndaşlar istənilən "ASAN xidmət" mərkəzinə yaxınlaşa və ölkədə fəaliyyət göstərən dövlət peşə təhsili müəssisələrində istənilən ixtisas üzrə sənəd qəbulu prosesində iştirak edə bilərlər.

### Həm peşəyə yiyələnəcək, həm də tam orta təhsil alacaqlar

Dövlət peşə təhsili müəssisələrinə sənəd qəbulu prosesində vətəndaşlar 10 ixtisas seçə bilər. Bütün peşə təhsil müəssisələri üzrə ixtisaslar barədə məlumatlar sistemdə yerləşdirilib. "ASAN xidmət" mərkəzlərinə müraciət edən vətəndaşlar bu barədə məlumatlandırılır. İxtisaslara gəlincə, onlar əmək bazarının tələblərinə uyğun olaraq iqtisadiyyatın bütün sahələrini əhatə edir. Burada iqtisadiyyatın prioritet istiqamətləri nəzərə alınmaqla sənaye, kənd təsərrüfatı, İKT, turizm sahələrini əhatə edən ixtisasları kadr hazırlığı üzrə qəbul nəzərdə tutulur. Müraciət edənlərin sərbəst seçimi əsasında dövlət peşə təhsili müəssisələri, onların ixtisasları müəyyən edilir və istədikləri ardıcıllıqla təsdiqlənir. Dövlət peşə təhsili müəssisələrinə qəbul şəhadətnamə və ya attestat üzrə müvafiq fənlərin orta balı nəzərə alınmaqla həyata keçirilir.

A.Əlili qeyd etdi ki, dövlət peşə təhsili müəssisələrində təhsil 3 illik, 2 illik, 1 illik və 6 ay müddətində nəzərdə tutulmuşdur. Tam orta, orta ixtisas və ali təhsilli vətəndaşlar peşə təhsili müəssisələrində 6 aylıq, 1 və 2 illik ixtisas üzrə təhsil ala bilərlər. 3 illik təhsil müddəti ümumi təhsil bazasından son 2 ildə məzun olanlar üçün nəzərdə tutulub. Burada müraciət edən vətəndaşlarımız peşə təhsili almaqla yanaşı, həm də tam orta təhsil almaq imkanlarına da malikdirlər.



### Yüksək fəallıq və yeni peşələr

Qeyd edək ki, avqustun 6-dan sənəd qəbulunun başlandığı ilk saatlardan "ASAN xidmət" və müvafiq peşə təhsil mərkəzlərində yüksək fəallıq müşahidə olunub. Qəzetimizin növbəti nömrəsi çapa hazırlanarkən A.Əlilidən aldığımız son məlumata əsasən, bu günə qədər "ASAN peşə" layihəsi çərçivəsində 4200-dən çox vətəndaş qeydiyyatdan keçib. Qəbul planında prioritet ixtisaslar üzrə kadr hazırlığı planlaşdırılır ki, bunlardan 33-ü yeni ixtisaslardır ("İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı"nda olan və hazırlanmasına yeni başlanan 24 ixtisas və müxtəlif sahəvi dövlət proqramlarının icrası istiqamətində Təsnifata əlavə edilən 9 ixtisas).

"Yeni ixtisaslardan "Balıq yetişdirilməsi üzrə mütəxəssis", "Elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis", "Dağmədən işləri üzrə mütəxəssis", "Məişət soyuducusu və istilik sistemlərinə xidmət üzrə mütəxəssis", "Mənzil təsərrüfatı xidməti üzrə mütəxəssis", "Üzümçülük və şərab ustası", "Gəmi elektriki", "Mühafizəçi" ixtisaslarını göstərə bilərik".

A.Əlili onu da qeyd etdi ki, eyni zamanda, 2018-2019-cu tədris ilindən başlayaraq 3 mərkəzdə - Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi və Rabitə və İnformasiya Texnologiyaları üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində ixtisaslı kadr hazırlığı rus bölmələrində də aparılacaq.

### Gələcəyə hesablanmış layihə

Ölkə ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanan "ASAN peşə" layihəsini gələcəyə hesablanmış uğurlu layihə adlandırmaq olar. 2016-2017-ci tədris ilindən başlayaraq Təhsil Nazirliyi və "ASAN xidmət" mərkəzləri arasında əməkdaşlıq çərçivəsində pilot olaraq Bakı və Gəncə şəhərlərində "ASAN peşə" layihəsinin reallaşdırılmasına başlanılıb. Ötən tədris ilində isə layihənin həyata keçirilməsinin əhatəsi bütün ölkə üzrə genişləndirilib. İndi proses, demək olar ki, bütün ilk peşə-ixtisas təhsili müəssisələrini əhatə etməkdədir.

Müasir inkişaf mərhələsində iqtisadiyyat və cəmiyyətin innovativ inkişaf yoluna keçidi məhz peşə təhsilinin inkişaf etdirilməsi və modernləşdirilməsi ilə sıx bağlıdır. Bu mənada "ASAN peşə" layihəsinin də müasir reallıqlar şəraitində rolu və əhəmiyyəti xüsusi aktuallıq kəsb edir. Çünki bütün məzunlar indiki sərt rəqabət mühitində yüksək peşəkarlıq səviyyəsi nümayiş etdirməklə yanaşı, həm də müasir dövrün tələblərinə tam cavab verməlidirlər. Peşə təhsilinin rolu həm də əmək bazarında bu sahəyə daha çox tələbatın olması faktoru ilə şərtlənir. Müasir peşə təhsili sisteminin yetişdirdiyi kadrlar isə yeni cəmiyyət quruculuğunda həlledici faktora çevrilir.

Qeyd edək ki, peşə təhsili dövlət hesabına və ödənişli əsaslarla həyata keçirilir. Dövlət hesabına təhsil alanlar təqaüdlə təmin olunurlar. Müsabiqənin nəticələri avqustun 27-də elan olunacaq və müvafiq peşə təhsili müəssisələrində qəbul olunanların qeydiyyatı həyata keçiriləcək.

# Rusiyalı gənclər Azərbaycanda səfərdə olub

Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (AMOR) sədri Leyla Əliyevanın dəvəti ilə Rusiya Federasiyasının bir qrup dövlət qulluqçularından, qeyri-hökumət gənclər təşkilatlarının üzvlərindən və ali məktəblərin tələbələrindən ibarət nümayəndə heyətinin Azərbaycana səfəri başa çatıb.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 24-dən 31-dək davam edən səfər çərçivəsində nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.

Sonra nümayəndə heyətinin üzvləri ilə Gənclər və İdman Nazirliyində görüş keçirilib. Görüşdə gənclər və idman nazirinin müavini İntiqam Babayev Azərbaycanda uğurla həyata keçirilən gənclər siyasəti, müxtəlif layihələr, əldə edilmiş uğurlar və beynəlxalq əlaqələr haqqında qonaqlara ətraflı məlumat verib, onların suallarını cavablandırıb.

Nümayəndə heyətinin üzvləri səfər barədə təəssüratlarını bölüşüblər. Moskva şəhərinin mədəniyyət departamentinin direktor müavini Vladimir Filippov səmimi görüşə və ətraflı məlumata görə minnətdarlığını bildirib.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Botanika bağının direktoru Aleksey Reteyum, AMOR-un idarə heyətinin üzvü Emin Hacıyev də görüşdə iştirak ediblər.

Görüşün sonunda qonaqlara Gənclər və İdman Nazirliyinin xatirə hədiyyələri təqdim olunub.

Növbəti gün Rusiya Federasiyasının gənclərdən ibarət nümayəndə heyətinin mədəniyyət nazirinin müavini Rafiq Bayramov ilə görüşü keçirilib. Görüşdə Azərbaycanda və Rusiyada keçirilən müxtəlif mədəni layihələr barədə ətraflı fikir mübadiləsi aparılıb.

Moskva Hökumətinin xarici iqtisadi və beynəlxalq əlaqələr departamentinin rəhbəri Oleq Şutenko qarşılıqlı mədəniyyət günlərinin keçirilməsini ölkələrimiz və paytaxtlarımız üçün əhəmiyyət daşıdığını vurğulayıb.

Moskva İstirahət və Turizm Agentliyinin dövlət mədəniyyət müəssisəsinin direktoru Vasili Ovçinnikov, Moskva şəhərinin mədəniyyət departamentinin əməkdaşı Artur Şukurovski, "Road to Moscow" təşkilatının inkişaf məsələləri üzrə direktoru Lyudmila Tsoy da görüşdə iştirak ediblər.

Növbəti gün nümayəndə heyətinin üzvləri Heydər Əliyev Mərkəzini ziyarət ediblər. Rusiyalı gənclər Mərkəzdəki Heydər Əliyev Muzeyi ilə tanış olublar.

Burada qonaqlara Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin mənalı həyatının və çoxşaxəli siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlar barədə ətraflı məlumat verilib. Heydər Əliyev Mərkəzindəki "Azərbaycan inciləri" və "Mini Azərbaycan" sərgiləri ilə tanışlıq da qonaqlarda xoş təəssürat oyadıb.

Nümayəndə heyətinin üzvləri Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin sədri Leyla Əliyeva ilə görüşərək dəvət üçün təşəkkürlərini bildirib, səfərlə bağlı təəssüratlarını bölüşüblər.

Növbəti günlərdə qonaqlar "JARA-2018" Beynəlxalq Musiqi Festivalının açılışında iştirak ediblər. Rusiyalı gənclər, həmçinin Milli Azərbaycan Tarixi Muzeyinin daimi ekspozisiyası, eləcə də Hacı Zeynalabdin Tağıyevin ev-muzeyi, Muzey Mərkəzi, Xalça Muzeyi, İçərişəhər, o cümlədən Qız qalası, Şirvanşahlar sarayı ilə tanış olublar.

# ADU Şanxay Çin Şərq Pedaqoji Universiteti ilə əməkdaşlıq edəcək

Azərbaycan Dillər Universitetində (ADU) Şanxay Çin Şərq Pedaqoji Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.

ADU-dan AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ali məktəb arasında əməkdaşlıq perspektivləri və birgə layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

ADU-nun tədris işləri üzrə prorektoru Əfqan Abdullayev ölkəmizdə ali təhsilin inkişafına dair dövlət strategiyası haqqında qonaqlara məlumat verib. Bildirib ki, Azərbaycanın ali təhsil proqramları ən müasir beynəlxalq təcrübəni tətbiq etməklə daim inkişafdadır. O, ADU-nun tarixi və tədris prosesi, beynəlxalq əlaqələri barədə danışaraq, universitetin əsasən pedaqoji, beynəlxalq və tərcümə sahəsində mütəxəssislər yetişdirdiyini söyləyib. Qeyd olunub ki, ADU dünyanın bir çox ölkələrinin, o cümlədən Çinin aparıcı universitetləri ilə əməkdaşlıq edir. Prorektor universitetlər arasında təhsil sahəsində mövcud əməkdaşlığın Azərbaycan-Çin humanitar əlaqələrinin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

ADU-nun nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun direktoru, professor Rafiq Abbasov institutun elmi, tədris və ictimai fəaliyyəti, həmçinin tarixi "İpək Yolu"nun dirçəlməsi ilə qlobal "Bir kəmər, bir yol" Çin layihəsinin həyata keçirilməsi istiqamətində aparılan araşdırmalar haqqında məlumat verib. O, ümummilli lider Heydər Əliyevin siyasi irsindən, Prezident İlham Əliyevin ölkələrimiz arasındakı çoxşaxəli dostluq və əməkdaşlıq istiqamətində gördüyü işlərdən söz açıb, qonaqları müvafiq məlumat bazası ilə tanış edib. "Bir kəmər, bir yol" konsepsiyasının əsas məqsədinin trans-Avrasiya iqtisadi və nəqliyyat dəhlizlərinin yaradılması olduğunu söyləyən R.Abbasov bu təşəbbüsün həyata keçirilməsində Azərbaycanın iştirakını xüsusi vurğulayıb.

Şanxay Çin Şərq Pedaqoji Universitetinin xarici tələbələrlə iş üzrə idarə rəisi Xuan Mey Syu ADU-da olmaqdan məmnunluğunu bildirib. Qonaq Çinin qədim universitetlərindən olan Şanxay Çin Şərq Pedaqoji Universitetinin beynəlxalq mübadilə sahəsində fəaliyyətindən bəhs edib. O, Konfutsi İnstitutunun Çin dili və tədrisi üzrə fəaliyyətini, eyni zamanda, Azərbaycan cəmiyyətini Çinin tarixi, mədəniyyəti və müasir həyatı ilə tanış etməsini yüksək qiymətləndirib. Konfutsi İnstitutunun aktiv fəaliyyətinin xalqlarımız arasında ənənəvi dostluq münasibətlərinin möhkəmlənməsinə böyük töhfələr verdiyini vurğulayıb.

Sonra qonaqlara ADU-nun Konfutsi İnstitutunun Çin dilində nəşr etdiriyi Prezident İlham Əliyevin Azərbaycan və Çin arasındakı ənənəvi dostluq əlaqələrinin, çoxşaxəli əməkdaşlığın möhkəmlənməsi və inkişafı uğrunda fəaliyyətinə həsr olunmuş "İlham Əliyev - iki qədim xalqın dostluğunun müasir davamçısı" kitabı və Azərbaycan dilində nəşr olunmuş ÇXR-in Sədri Si Cinpinin dövlət idarəçiliyinin müasir konsepsiyasına və Çin rəhbərliyinin siyasi strategiyasına həsr olunmuş çıxışlarının əsas tezislərindən ibarət kitab hədiyyə edilib.

# Məktəbəhazırlıq qruplarına sənəd qəbulu başlayır

⇦ Əvvəli səh.1

Sənədlərin qəbulu sentyabrın sonunadək davam edəcək.

Məktəbəhazırlıq qrupları ölkənin bütün şəhər və rayonlarında, müvafiq maddi-texniki bazası və kadr potensialı olan məktəblərdə təşkil olunur.

Dövlət ümumtəhsil məktəblərində yaradılmış məktəbəhazırlıq qruplarına 5 yaşı həmin il tamam olmuş uşaqlar qəbul olunurlar. Məktəbəhazırlıq qruplarında təhsil dövlət hesabına həyata keçirilir. Müvafiq qanunvericiliyə uyğun olaraq, Təhsil Nazirliyinin icazəsi ilə bir sıra təhsil müəssisələrində məktəbəhazırlıq qruplarında təhsil ödənişli həyata keçirilə bilər.



Bu qruplarda gün ərzində 3, həftədə 4 gün olmaqla 12 məşğələ keçirilir. Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə müəyyənləşdirilib.

Məktəbəhazırlıq qruplarında "Ətraf aləmlə tanışlıq", "Savad təliminə hazırlıq və nitq inkişafı", "Bədii təfəkkürün inkişafı", "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət", "Musiqi", "Fiziki mədəniyyət" məşğələləri keçirilir.

Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qruplarında dərs ili iki yarımilə bölünür. Məktəbəhazırlıq qruplarında məşğələlər oktyabrın 1-də başlayıb, mayın 31-də başa çatacaq.

# İnternat məktəblərinin məzunları üçün düşərgə başa çatıb

"İnternat Məzunlarının Sosial İnteqrasiyası" Gənclər İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə reallaşdırdığı "İnternat məzunu olan gənclərin ali təhsilə həvəsləndirilməsi" layihəsi çərçivəsində keçirilən yay düşərgəsi başa çatıb.

Birlikdən AZƏRTAC-a bildiriblər ki, layihənin məqsədi internat məktəblərindən məzun olan gənclərin ali təhsilə marağının, onlarda özününam hissinin artırılması, Azərbaycan qanunvericiliyinin belə gənclər üçün yaratdığı imkanlardan maksimum istifadə etmə sahəsində maarifləndirmə işinin aparılması, internat məzunlarının sosial inteqrasiyasına töhfə verməkdir.

Layihə çərçivəsində İsmayıllı rayonundakı "Qızıl qaya" ailəvi istirahət mərkəzində dördgünlük düşərgə təşkil olunub. Düşərgədə Bakıda və Sumqayıtda yerləşən altı internat məktəbindən məzun olmuş 30 gənc iştirak edib.

Düşərgədə gənclərə dövlətin internat və uşaq evlərinin məzunu olan gənclərin təhsil almaları ilə bağlı yaratdığı imkanlar barədə məlumat verilib və İctimai Birliyin bu işə töhfəsindən danışılıb. Komanda ruhu formalaşdırmaq üçün qrup işləri və müxtəlif oyunlar təşkil olunub. Təlimlərdə əldə edilən bilik və bacarıqların möhkəmləndirilməsi üçün müxtəlif praktiki tapşırıqlar və intellektual oyunlar keçirilib.

Gənclərin düşərgə çərçivəsində İsmayıllı rayonunun füsunkar təbiəti və qədim ənənələri ilə məşhur olan Lahıc və Diyallı kəndlərinə səfərləri təşkil edilib. Qədim sənətkarlıq nümunələri, mədəni-tarixi abidələr ilə tanışlıq onlarda xoş təəssürat yaradıb. Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə İsmayıllı rayonunda "100 illik tariximiz" şüarı altında keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalında iştirak edən gənclər Azərbaycanın bölgələrinin mədəni zənginliyi, özünəməxsusluğu, qədim tarixi, ənənələri, incəsənət nümunələri ilə də tanış olublar.

Layihənin ikinci mərhələsi Bakıda həyata keçiriləcək.

# Ali təhsilsiz varlılar

## Dünyaca məşhur milyarderlərin bəzilərinin diplomu yoxdur

⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

HENRİ Ford - amerikalı sənayeçi. İndiki kursa çevirsək, 199 milyard dolları olub. Ancaq təhsil almayıb. Fordun təhsili yalnız kilsə məktəbi ilə məhdudlaşıb, ömrünün sonunadək yazarkən ciddi hərf səhvlərinə yol verirmiş. Di gəl ki, bu, onun "Ford Motor Company" şirkətini və onlarla avtomobil zavodunu yaratmasına mane olmayıb. Ford 161 patentin müəllifidir.

H.Ford özünün savadsızlığını qəbahət saymırdı. O, hətta bir dəfə onu "savadsız" hesab edən Çikaqo qəzetlərindən birini məhkəməyə də vermişdi. Napoleon Hill özünün "Düşün və varlan" adlı kitabında həmin məhkəmə prosesindən yazır: "Qəzetin vəkili məhkəmədə Henri Forda sual verdi ki, Böyük Britaniya 1776-cı ilin qiyamını yatırmaq üçün Amerikaya nə qədər əsgər göndərmişdi? Ford cavabı bilməsə də, özünü itirmədi: "Mən dəqiq deyə bilmərəm əsgərlərin sayı nə qədər idi, ancaq əminəm ki, onlar vətənlərinə qayıdarkən sayları xeyli azalmışdı".

Ford əmin idi ki, insan həyatı boyu öz ağlına güvənməlidir, nəinki dərsliklərə. Milyarder deyirdi: "Dünyada ən çətin iş öz ağlınla düşünməkdir. Yəqin bu səbəbdən bunu çox az adam məşğul olur". Ford "Mənim həyatım, mənim nailiyyətlərim" adlı kitabında ali təhsili olan şəxslər barədə belə yazır: "Əgər mən rəqiblərimi ədalətsiz üsullarla sıradan çıxarmaq istəsəydim, onlara xeyli mütəxəssis təqdim edərdim. Rəqiblərimin başı qarışardı onlardan çoxlu yaxşı məsləhətlər almağa, iş qalardı kənarda".

PİTER Til - "PayPal" ödəmə sisteminin təsisçisi. Var-dövləti 2,5 milyard dollar təşkil edir. Fəlsəfə üzrə incəsənət bakalavrıdır, Stenford Universitetində hüquq üzrə doktor olub.

Til həm orta, həm də ali məktəbi sonadək oxumasına baxmayaraq, təhsili həmişə tənqid edir. İş adamının fikrincə, həyatda təhsilsiz və diplomsuz daha çox uğur qazanmaq olar. Bu qənaətini sübut etmək üçün Til "Til qardaşlığı" adlı layihəyə start verib. Layihə nədən ibarətdir? Hər il o, təhsilini atıb öz startapına başlamağa hazır olan bir neçə tələbə seçir və onların hər birinə 100 min dollar verir. İki il ərzində fond bu tələbələrə köməklik göstərir, onları investorlarla tanış edir. İş adamının fikrincə, nüfuzlu təhsilin arxasınca qaçmaqdansa, real işlər görmək lazımdır. Nəzərə alsaq ki, Amerikada gənclər ali təhsillərini başa vurduqdan sonra xeyli miqdədə kredit qaytarmalı olurlar, Til bu sistemi orta əsrlərdə kilsənin durumu ilə müqayisə edir: "İnsanlar böyük borclara girirlər, indulgensiyalar alırlar ki, o dünyada xilasa ümidləri olsun. Diplom almaq da belədir".

CON Rokfeller - amerikalı iş adamı. İndiki ekvivalentlə 340 milyard dolların sahibi. Təhsili olmayıb.

Tarixə ilk dollar milyarderi kimi düşmüş Rokfeller ali təhsili uğurun mənbəyi hesab etmirdi. İş adamının diplomu olmayıb. Məktəbdən sonra Klivlend kollecinə daxil olub, mühasibatlığı oxumaq istəyib. Ancaq sonra düşünüb ki, bunun üçün 3 aylıq kurslar da yetərlidir. Kursları bitirdikdən sonra baş mühasibin köməkçisi vəzifəsinə düzəlib, tezliklə baş mühasib olub, sonra topladığı pulları öz işinə yatırıb. Rokfeller qeyd edirdi ki, diplom karyera üçün başlanğıc ola bilər, ancaq gəlir mənbəyi sayıla bilməz. Çünki mütəxəssisi heç kim diplomuna görə dəyərləndirmir.

**Rokfeller qeyd edirdi ki, diplom karyera üçün başlanğıc ola bilər, ancaq gəlir mənbəyi sayıla bilməz. Çünki mütəxəssisi heç kim diplomuna görə dəyərləndirmir. Peşəkar olmaq üçün qarşına məqsəd qoyub əziyyət çəkməlisən. Milyarderin fikrincə, diplom elə təsəvvür yaradır ki, sanki sənin heç problemin yoxdur.**

Peşəkar olmaq üçün qarşına məqsəd qoyub əziyyət çəkməlisən. Milyarderin fikrincə, "diplom elə təsəvvür yaradır ki, sanki sənin heç bir problemin yoxdur. Səndə savadsız insanlardan üstünlüyünə dair yanlış təsəvvür yaradır və reallıq hissindən məhrum edir. Sənə elə gəlir ki, sabah dağa qalxıb istənilən problemi həll edə bilərsən, ancaq bu, yanlış qənaətdir".

### Mənim universitetim mənim peşəmdir

AMANSİO Orteqa - "İnditex" şirkətinin əsasını qoyub. 76,4 milyard dolları var, təhsili yoxdur. Orteqa cəmi 60 sakini olan kənddə kasıb ailədə doğulub. Ailədə ondan başqa daha 3 uşaq var idi və valideynləri onları dolandırmaqda çətinlik çəkirdilər. Bir dəfə ərzaq mağazasının sahibi onun anasına nisyə mal verməkdən imtina edir. Bunu görən 13 yaşlı Amansio qarşısına nəyin bahasına olursa-olsun, varlı olmaq məqsədi qoyur. Gələcək milyarder 13 yaşında atelyedə kuryer işləməyə başlayır və cəmi 4 il sonra öz işini qurur. Bu gün Orteqa "Zara", "Bershka", "Massimo Dutti", "Pull and Bear", "Stradevarius" kimi geyim brendlərinin sahibidir. Amansionun təhsili olmasa da, dünyanın ən nüfuzlu şəxslərindən biridir. Bir müddət planetin ən varlı adamlarının siyahısına başçılıq edib. Orteqa deyir: "Mənim universitetim mənim peşəmdir".

STİV Cobs - "Apple"nin yaradıcısı və "Pixar" kinostudiyasının sahibi. Öləndə 7 milyard dolları olub. Ali təhsili olmayıb.

Cobsu ögey valideynlər tərbiyə ediblər. Onlar uşağı özlərinə götürəndə şərtlərdən biri bu olub ki, gələcəkdə Stivə kollecə daxil olmağa kömək edəcəklər ki, ali təhsili olsun. Cobs özəl humanitar universitet olan "Reed College"də təhsil almağa cəhd göstərib, ancaq 6 aydan sonra buranı tərk edib. Stenford Universitetinin tələbələri qarşısında çıxış edərkən o, bunu belə izah edib: "Birincisi, təhsil çox baha idi, valideynlərim bütün pullarını mənə xərcləyirdilər. İkincisi, mən cəmi bir neçə aydan sonra anladım ki, oxumağın heç bir mənası yoxdur".

Dünyaca məşhur iş adamı bir ara bilmir nə ilə məşğul olsun, hətta universitetdən qovulmasına baxmayaraq, dekanatın razılığı ilə yaradıcılıq dərslərinə gedib gəlir. O, bununla bağlı deyir: "O vaxt bilmirdim nə edirdim. Və anlaya bilmirdim ki, universitet mənə necə kömək edə bilər. Ancaq indi geriyə baxarkən görürəm ki, o dərnəklərə getmək həyatımda qəbul etdiyim ən doğru qərar olub".

### Ən yaxşı təhsil özünüzə etdiyiniz yatırımdır

UORENN Baffet - iş adamı, yatırımcı və xeyriyyəçi. 85 milyard dolları var. Nebraska-Linkoln Universitetində bakalavr, Kolumbiya Universitetində magistr dərəcələrini alıb. 2010-cu ildə Baffet 5 xeyriyyə fonduna 37 milyard dollar vəsait köçürüb. Bundan sonra o, tarixin ən böyük xeyriyyəçisi olub. Piter Til kimi Uorenn Baffet də universiteti sonadək oxuyub, ancaq əmindir ki, ali təhsil hamıya lazım deyil.

Amerikada kreditlərin böyük bir qismi təhsilə verilmiş vəsaitdir. Baffet bu sistemə "sabun köpüyü" deyir. İş adamının sözlərinə görə, o, indi heç bilmir aldığı diplom haradadır. Baffetin sözlərinə görə, təhsil baxımından ən dəyərli investisiya yatırımı Karneginin 100 dollara keçdiyi natiqlik kurslarına olub. Üç övladı var, heç birinin ali təhsili yoxdur. İş adamı deyir: "Təhsilin mənim üçün hansısa dəyəri varmı? Şəxsən mən universitetdə valideynlərimə görə oxumuşam... Ala biləcəyiniz ən yaxşı təhsil özünüzə etdiyiniz yatırımdır. Ancaq söhbət nə kollecdən gedir, nə də universitetdən".

LARRİ Elison - "Oracle" korporasiyasının sahibi. Təhsili yoxdur, ancaq 61 milyard dolları var. İş adamının ən sevimli deyimi: "Yaxşı təhsil biznesdə üstünlükdür, ancaq uğurun təminatı deyil".

Larri 9 aylıq olarkən sətəlcəm olur. Anası anlayır ki, ona baxa bilməyəcək. Bu səbəbdən qohumlarına verir. Ögey valideynləri ilə yaşayan Elison məktəbi bitirib, İllinoys Universitetinə daxil olur. Ancaq anası həyatını dəyişdiyindən universiteti tərk edir. Sonra Çikaqo Universitetinə qəbul olunur, ancaq iki il oxuduqdan sonra təhsilini atıb karyera qurmaq üçün Kaliforniyaya köçür. "Oracle" proqram təminatı sahəsində "Microsoft"dan sonra ikinci ən iri şirkətdir. 145 ölkədə 120 min işçisi var.

### Milyarderləri haradan tapmaq olar?

ABŞ-ın Harvard Universiteti və Harvard biznes-məktəbi ən çox gələcək milyarder "ixrac" edən təhsil ocaqlarıdır. Kaliforniyadakı Stenford Universiteti və Massaçusets Texnoloji İnstitutu IT sahəsində milyarder olmuş məzunların təhsillərini bitirdikləri ali məktəblərdir. Britaniyada milyarder-məzunlar adətən London İqtisadi Məktəbi və Kembrici bitirirlər. Fransada liderlik Parisdəki Politexnik Məktəbə məxsusdur. Almaniyada milyarderlər Karlsrue, İtaliyada Milan, İsveçrədə Sürix universitetlərindən çıxırlar.

Odur ki, seçim özünüzündür: diplomlu, yaxud diplomsuz milyarder. Dünyanın varlıları sırasında olmağa yol təkcə ali təhsil almaqdan keçmir.

## Azərbaycan Xalq Cümhuriyyəti - 100

# Milli hökumət təhsili milliləşdirdi

⇦ Əvvəli səh.1

## Azərbaycanda yaşayan digər xalqların da təhsil almaq hüququ dəstəklənirdi

**Aqşin KƏRİMLİ,**
*Ağdaş rayonu Nofəl Babayev adına Qəribli kənd tam orta məktəbinin tarix müəllimi*

Həmin məktəblərin hamısında ana dili məcburi tədris olunmalı idi. Görülən tədbirlərin nəticəsində dövlət hesabına 637 ibtidai və 23 orta ixtisas təhsili məktəbi fəaliyyət göstərirdi.

Milliləşdirmə mütərəqqi addım olsa da ciddi çətinliklərlə qarşılaşırdı:

* pedaqoji kadr və müəllimlərin çatışmazlığı;

* lazımi dərsliklərin kifayət qədər olmaması;

* erməni və rus azlıqlarının Azərbaycan dövlətini tanımamağa meyillənmiş müqaviməti.

Məktəb şəbəkəsinin bərpa edilməsi üçün hökumət maddi-texniki bazanın möhkəmləndirilməsi, məktəblərin təmiri və bərpası üzrə tədbirlər gördü: Zaqatala, Göyçay, Şuşa və digər yerlərdə yeni məktəblər açıldı. Artıq 1919-1920-ci tədris ilində məktəblərin sayı 70-ə çatırdı.

Milli hökumətin təhsil siyasəti məsələnin yalnız texniki tərəfi ilə məhdudlaşmırdı. Təhsilin milliləşdirilməsi ilə əlaqədar bütövlükdə təhsil islahatı məsələsi ortaya çıxdı. İslahatın mahiyyəti təhsili yeni şəraitə uyğunlaşdırmaq, onu milli dövlətçilik mənafeyinə yaxınlaşdırmaq, milli dəyərləri mənimsəmiş yeni nəsil yaratmaqdan ibarət idi. Bu məqsədlə yeni tədris proqramlarının hazırlanması üçün komissiyalar yaradıldı. Komissiyaların işində Hüseyn Cavid, Abdulla Şaiq, Cəmo bəy Cəbrayılbəyli kimi dövrünün mütərəqqi ziyalıları yaxından iştirak edirdilər. Çox keçmədən yeni dərsliklər - “Türk əlifbası”, “Yeni hesab”, “Ədəbiyyat dərsləri”, “Türk qrammatikası”, “Təbiətşünaslıq tarixi” və s. hazırlandı. Dövrün ab-havası ilə səsləşən yeniliklərdən biri tədris proqramına türk xalqları tarixinin daxil edilməsi oldu.

Cümhuriyyət rəhbərləri qızların təhsili məsələsinə də biganə deyildilər. Hökumətin 1919-cu il 11 avqust tarixli qərarı ilə Bakı, Gəncə və Nuxa qız gimnaziyalarının adı dəyişdirildi: Bakıdakı gimnaziya birinci Azərbaycan gimnaziyası, Gəncə və Nuxadakılar qız gimnaziyaları adlandırıldı. Orta təhsil müəssisələrində qızların sayı artdı: 1918-1919-cu tədris ilində Gəncə gimnaziyasında 4 nəfər qız oxuyurdusa, 1919-1920-ci tədris ilində onların sayı 296 nəfər idi.

Milli hökumətin milliləşdirmə siyasəti məktəb təhsili ilə məhdudlaşmırdı. Yaşlı əhali arasında savadsızlıqla mübarizə də milliləşdirmənin tərkib hissəsi idi. Hökumətin təşəbbüsü ilə 1919-cu ilin sentyabrında Azərbaycan (türk) dilinin öyrədilməsi üzrə kurslar təşkil olundu, işin icrası üçün büdcədən 951000 manat vəsait ayrıldı.

Milli hökumət yaxşı başa düşürdü ki, savadsızlığı yalnız birtərəfli tədbirlər hesabına aradan qaldırmaq mümkün deyil. Bu istiqamətdə ən mühüm tədbirlərdən biri olan əlifba islahatı da milli hökumətin maarifçilik fəaliyyəti və təhsil üzrə dövlət proqramının reallaşdırılmasına xidmət edirdi. Əlifba islahatında ilk addım 1919-cu ilin martında X.Məlikaslanovun sədrliyi altında dövlət komissiyasının yaradılması oldu. Təqdim olunmuş layihələrdən müəllim Abdulla bəy Əfəndiyevin layihəsi parlament tərəfindən bəyənildi və yeni əlifba üçün əsas qəbul olundu.

Milli hökumət yaxşı başa düşürdü ki, təhsil sistemini kökündən dəyişdirmək üçün pedaqoji kadrların hazırlanması birinci dərəcəli məsələdir. Bu məqsədlə Xalq Maarif Nazirliyi aşağıdakı tədbirləri görmüşdü:

* Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü və müstəqil seminariyaya çevrildi;

* kişi və qadın gimnaziyaları açıldı;

* parlamentin 1919-cu il iyul tarixli qanununa görə iki aylıq pedaqoji kurslar açıldı və onlara 2 milyon 390 min manat vəsait ayrıldı;

* 1918-ci ilin 23 iyulunda Osmanlıdan dərslik tədarükü və müəllimlərin dəvət olunması üçün qanun qəbul olundu. Bunun üçün Türkiyə həyatı ilə yaxından tanış olan Əhməd bəy Ağayev qardaş ölkəyə ezam olundu;

* təhsilin texniki təşkili üçün tədbirlər görüldü. Gəncədə dəmiryol və teleqraf xidmətçiləri hazırlanan kurslar açılmış, Salyanda açılması nəzərdə tutulan təhsil müəssisəsinin layihəsi hazırlanmışdı.

Yeni yaranmış respublikada ali təhsilin təşkili məsələsi də diqqət mərkəzində idi. Xalq Maarif Nazirliyi üç ali məktəbi - Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu və Dövlət Konservatoriyası açmağı planlaşdırmışdı. Amma bunlardan yalnız birini- Bakı Dövlət Universitetini açmaq mümkün oldu. Bakıda universitetin açılması ilə əlaqədar 1919-cu ilin may-sentyabrında 35 iclas keçirildi. İlkin müzakirələr göstərdi ki, əsas prinsipial məsələlər üzrə fikir birliyi var. Ancaq layihənin opponentləri də vardı. Fikir ayrılığı açılması nəzərdə tutulan universitetdə tədrisin rus dilində aparılması ilə bağlı oldu. Opponentlər rus dilində tədrisə qarşı çıxmaqla yanaşı, yaxın gələcəkdə universitetin təşkili üçün lazımi vəsaitin tapılmayacağını da iddia edirdilər. M.Ə.Rəsulzadə vəziyyəti şərh edərək deyirdi: “Əlbəttə, yaxşı olardı ki, açılacaq elm ocağı türk (Azərbaycan) dilində olaydı, lakin bu hələlik mümkün deyildir. Lakin bu başqa dildə də olsa universitetin fəaliyyətinə mane olmamalıdır”. M.Şahtaxtlı “Azərbaycan” qəzetində yazırdı ki, bundan qorxmaq lazım deyil, milli kadrlar yetişdikcə tədris dili Azərbaycan dilinə keçiləcəkdir. 1919-cu il noyabrın 15-də universitetin açılışı münasibətilə onun ilk rektoru V.İ.Razumovski yazırdı ki, türk (Azərbaycan) xalqının tarixinə yeni parlaq səhifə yazıldı, Asiya ilə Avropa qovşağında yeni məşəl yandı.

Noyabrın 17-də “Azərbaycan” qəzetində “Darülfünun” adlı məqalədə Avropa xalqlarının inkişafında universitetlərin rolundan bəhs olunurdu: “ Tarixdə Afina darülfünunun yeni bir Yunanıstan yaratdığını kim inkar edə bilər? Bir əsr əvvəl Fransiyayı aləmşümul təqəllüb və təkamülə atan Sorbon darülfünu deyilmi? Almanları 1806-cı il fəlakətindən sonra yenidən şöhrət və siyasətə hazırlayan Berlin darülfünu deyilmi? Azərbaycan darülfünunun həyata başlaması tarixi olan 15 noyabr yeni bir tərəqqi dövrünün açılmasının ibtidası olacaqdır”.

Milli hökumət ali təhsilli kadrlara olan ehtiyacını tələbələri əcnəbi universitetlərə göndərməklə ödəməyə çalışırdı. Tələbələri seçmək üçün M.Ə.Rəsulzadənin rəhbərliyi ilə münsiflər heyəti yaradıldı. Münsiflərin seçdiyi tələbələr qonşu Rusiya və Türkiyə də daxil Avropanın ali təhsil ocaqlarına göndərilməli idilər. Onlar 1920-ci ilin martın 14-də Tiflisdən dövlət rəsmilərinin iştirakı ilə təntənəli şəkildə yola salındılar. Parisdə Azərbaycan nümayəndə heyətinin rəhbəri Ə.Topçubaşov onları qəbul etdi və böyük nitq söylədi. Tələbələrə dövlət ayda 400 frank təqaüd ayırmışdı. Dövlət hesabına gedən tələbələr qayıtdıqdan sonra dövlətin təyin etdiyi işdə işləməli idilər. Ancaq 28 aprel istilası vəziyyəti kökündən dəyişdi: tələbələrə pul göndərilmədi. Belə olan halda onlar Nəriman Nərimanova müraciət etdilər. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 9 avqust iclasında onlara yardım edilməsi haqda qərar qəbul olundu. N.Nərimanov bu işi davam etdirsə də onun Moskvaya təyinatından sonra bu iş yarımçıq qaldı. Və onlar taleyin ümidinə buraxılaraq tərk edildilər.

Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin varisi - Azərbaycan Respublikası təhsil sahəsində sələfinin yarımçıq qalmış işlərini böyük uğurla davam etdirir: məktəblərin maddi-texniki bazası gücləndirilir, müəllimlərin rifah halı yaxşılaşdırılır, dövlət proqramları vasitəsilə tələbələrin xarici ölkə universitetlərində təhsili dəstəklənir.

Azərbaycan Xalq Cümhuriyyəti təkcə tarix deyil. O, həm də örnək və gələcək təcrübədir.

# Riyaziyyatdan dərs nümunəsi



**Xalidə SADIQOVA,**
*Bakı şəhərindəki fizika, riyaziyyat və informatika təmayüllü liseyin riyaziyyat müəllimi*

*Mövzu:* Viyet teoremi

*Standart:*

2.1.1. Həyati situasiyaya uyğun kvadrat tənlik qurur.

2.2.2. Kvadrat tənlikləri həll edir.

*Təlimin məqsədi:*

- kvadrat tənliyi Viyet teoremini tətbiq etməklə həll edir;

- verilmiş köklərinə görə kvadrat tənlik qurur;

- dəyişənlərinin qiyməti verilən kvadrat tənliyin kökləri olan ifadələri sadələşdirir və qiymətini hesablayır.

*İş forması:* Qruplarla iş

*İş üsulu:* Müsahibə və müzakirə

*Resurslar:* Dərslik, iş vərəqləri, İKT avadanlıqları

Mövzunun yaxşı mənimsənilməsi üçün şagirdlər “Kvadrat tənlik” mövzusunu yada salmalıdırlar.

*Dərsin gedişi:* Düşünməyə yönəltmə mərhələsində sinfi üç qrupa ayırmaqla fəal təlim üsullarından istifadə etmək.

Hər üç qrupun tapşırığı proyektor vasitəsilə lövhədə göstərilir və vərəqdə qrupun üzvlərinə paylanır.

I qrupun üzvlərindən biri kvadrat tənliklər haqqında danışır:

Kvadrat tənliyə aid məsələlərə 499-cu ildə hind riyaziyyatçısı və astronomu Ariabxatta tərəfindən tərtib olunmuş “Ariabxatta” astronomik traktında rast gəlinir. Digər hind alimi Braxmaqupta (VII əsr) $ax^2+bx+c$, a>0 Kanonik şəkilli kvadrat tənliyin həllinin ümumi qaydasını şərh etmişdir. Braxmaquptanın verdiyi həll üsulu müasir üsulla demək olar ki, eynidir.

VIII-IX əsr özbək riyaziyyatçısı Məhəmməd Əl-Xarəzmi “Kitab əl-Cəbr vəl-Mükabala” əsərində xətti və kvadrat tənliklərin aşağıdakı 6 şəklini vermişdir:




Xarəzmi mənfi ədəddən istifadə etmədiyindən, bu tənliklərin hər bir həddi toplanan kimi qəbul olunurdu.

Kvadrat tənliyin Əl-Xarəzmi tərəfindən verilmiş qaydada həlli düsturu Avropada ilk dəfə 1202-ci ildə italyan riyaziyyatçısı Leonardo Fibonaççinin “Abak kitabı”nda şərh edilmişdir.

$x^2+bx=c$ şəklinə gətirilən kvadrat tənliyin həllinin ümumi üsulu alman riyaziyyatçısı M.Ştifel (1487-1567) tərəfindən şərh edilmişdir. Ümumi şəkildə kvadrat tənliyin həlli düsturunun çıxarılması ilə Viyet məşğul olmuşdur. Lakin o öz fikrini ancaq müsbət köklər üçün söyləmişdir. O, mənfi ədədləri qəbul etmirdi. Niderland riyaziyyatçısı A.Jirar (1595-1632), həmçinin Dekart və Nyutonun əsərlərindən sonra kvadrat tənliklərin həlli üsulu müasir şəkil almışdır.

Tənliyin köklərinin əmsallarından asılılığını ifadə edən düsturlar 1591-ci ildə Viyet tərəfindən çıxarılmışdır. Kvadrat tənlik üçün Viyet teoreminin müasir görünüşü belədir: $(a+b)x-x^2=ab$ tənliyinin kökləri a və b ədədləridir.

II qrupun tapşırığı: Diskriminanta görə kvadrat tənliyin həllinin araşdırılması.

III qrupun tapşırığı: Çevrilmiş kvadrat tənliyin kökləri düsturunu yazmaq və köklərin $X_1+X_2$ cəmini və $X_1 \cdot X_2$ hasilini tapmaq.

Qruplar tapşırıqlarını yerinə yetirib təqdimatlar edirlər.

Sonra ümumiləşdirmə aparılır, Viyet teoreminin sözlə ifadə edilməsi və düsturla yazılışı soruşulur.

Teorem (Viyet teoremi): Çevrilmiş kvadrat tənliyin köklərinin cəmi əks işarə ilə götürülmüş ikinci əmsala, köklərinin hasili isə sərbəst həddə bərabərdir.

$$\begin{cases} x_1 + x_2 = -p \\ x_1 \cdot x_2 = q \end{cases}$$

III qrupun üzvlərindən biri fransız riyaziyyatçısı Fransua Viyet haqqında danışır.

Fransua Viyet (1540-1603) - fransız riyaziyyatçısıdır, cəbri simvollar sistemini daxil etmiş, elementar cəbrin əsaslarını işləmişdir. O, ilk dəfə olaraq ədədləri hərflərlə işarə etmişdir (bu isə tənliklər nəzəriyyəsinin xeyli inkişaf etməsinə səbəb olmuşdur).

Viyet 1540-cı ildə Fransanın Vendes əyalətində Ventenay Ze Kombidə anadan olmuşdur.

O, hüquqşünas olandan sonra riyaziyyatla, astronomiya və kosmologiya ilə məşğul olmağı davam etdirmiş, 1571-ci ildə triqonometriyaya əlavə ilə birlikdə “riyazi kanon” çap etdirmişdir. 1591-ci ildə təkcə naməlum ədədlər üçün deyil, həm də əmsallar üçün bərabərliyin hərfi işarəsini daxil etmişdir. Bunun sayəsində ilk dəfə olaraq bərabərliklər və onların köklərini ümumi formula ilə işarə etmək mümkün olmuşdur. II, III və IV dərəcəli bərabərliklərin vahid üsulla həllinin təyini ona məxsusdur. Kəşflərinin içərisində Viyet bərabərliklərin köklər və əmsallar arasındakı asılılığının müəyyən edilməsi yüksək qiymətləndirilmişdir.

Bərabərliklərin say əmsalları ilə yaxınlaşmış həlli üçün, Viyet Nyutonun sonradan təklif etdiyi metoda oxşayan metod təklif etmişdir. Triqonometriyada Viyet 3 verilənə görə hamar və sferik üçbucağın bütün elementlərinin tam həllini vermişdir. Cosinus nx və Sinus mx-in bütün dərəcələrində Cosinus x və sinus x-in mühüm açılışını tapmışdır. Viyet ilk dəfə olaraq sonsuz törəmələri nəzərdən keçirmişdir.

Viyet teoremi - göstərilən kvadrat tənliyin kökləri cəmi x-in əks işarəli əmsalına, kökləri hasili isə sərbəst həddə bərabərdir.

Düşünmə mərhələsində mövzunun nəzəri cəhətdən mənimsənilməsi yoxlanılır və çalışma həllinə tətbiqinə nail olunur.

Sonra şagirdlərlə sual-cavab aparılır:

Sual: Kim gəlib verilmiş tam kvadrat tənlik üçün Viyet düsturlarını lövhədə yazar?

Şagird:

$$ax^2 + bx + c = 0$$

$$x^2 + \frac{b}{a}x + \frac{c}{a} = 0$$

$$X_1 + X_2 = -\frac{b}{a}$$

$$X_1 \cdot X_2 = \frac{c}{a}$$

*Sual:* Kim Viyet teoreminin tərs teoremini ifadə edər?

Teorem:

*Şagird:* “İki m və n ədədlərinin cəmi (-p)-yə, hasili isə q-yə bərabərdirsə, m və n ədədləri $x^2+px+q=0$ tənliyinin kökləridir” deyib isbat edir.

Sonra çevrilmiş kvadrat tənliyin köklərinin işarəsinin təyin edilməsi ilə bağlı iş aparılır.

Daha sonra Viyet teoreminin tətbiqinə aid lövhədə misallar həll olunur.

Tapşırıq icra edildikdən sonra ev işi elan olunur (dərslik, səh.100, tapşırıq № 10, 12, 14, 15) və ona aid müəyyən izahlar verilir.

*Refleksiya:* Bu məqsədlə dərsdə keçirilənlər təkrarlanır, bacarıqlar yoxlanılır və dərs prosesində şagirdlərin fəaliyyəti dörd səviyyə üzrə qiymətləndirilir.

Viyet teoreminin tətbiq sahələri və çevrilmiş kvadrat tənliyin köklərinin işarəsinin təyin edilməsi proyektorla lövhədə göstərilir.

Tam kvadrat tənlik əvvəlcə çevrilmiş kvadrat tənliyə gətirilir, sonra Viyet teoremi tətbiq olunur.

Viyet teoremindən istifadə etməklə kvadrat tənlikləri həlletmə, verilmiş köklərinə görə kvadrat tənlik qurma, həmçinin bu köklər üzərində qurulmuş daha mürəkkəb ifadələri sadələşdirmə və qiymətini hesablama tapşırıqlarını yerinə yetirmə bacarıqlarına görə qiymətləndirmə aparılır.

| | |
|---|---|
| I səviyyə | Viyet teoremini ifadə edir, lakin kvadrat tənliklərin həllinə tətbiq edə bilmir. |
| II səviyyə | Viyet teoremindən istifadə etməklə kvadrat tənlikləri həll edir, verilmiş köklərinə görə kvadrat tənlik qura bilmir. |
| III səviyyə | Viyet teoremindən istifadə etməklə kvadrat tənliyi həll etməyi, verilmiş köklərinə görə kvadrat tənlik qurmağı bacarır, lakin bu köklər üzərində qurulmuş daha mürəkkəb ifadələri sadələşdirməyi bacarmır. |
| IV səviyyə | Viyet teoremindən istifadə etməklə kvadrat tənliyi həll edir, verilmiş köklərinə görə kvadrat tənlik qurmağı bacarır, bu köklər üzərində qurulmuş daha mürəkkəb ifadələri sadələşdirmə və qiymətini hesablamaq tapşırıqlarını yerinə yetirməyi bacarır. |

# Gənc alimlər Astanada bir arada

## Beynəlxalq forumda Azərbaycanda elm sahəsində aparılan islahatlardan danışılıb

Qazaxıstanın paytaxtı Astanada "Burabay forum: beynəlxalq əmək-daşlıq" mövzusunda gənc alimlərin beynəlxalq forumu keçirilir.

Üç gün davam edəcək forum Qazaxıstan Respublikasının Birinci Prezidenti Fondu və həmin fondun Elmi Şurasının təşkilatçılığı ilə reallaşdırılıb.

Azərbaycan Milli Elmlər Akademiyasından (AMEA) AZƏRTAC-a bildiriblər ki, tədbirə Qazaxıstanın dövlət rəsmiləri, ali təhsil müəssisələrinin rektorları, MDB respublikalarının gənc alimlər şuralarının sədrləri, eləcə də müxtəlif ölkələrdən gənc alimlər qatılıblar.

Beynəlxalq forumda respublikamızı AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının sədri, dosent Famin Salmanov, Rəyasət Heyəti aparatının elm və təhsil idarəsinin rəis müavini, dosent Hüseyn Hüseynov və həmin idarənin elmi-analitik şöbənin rəisi Fail Kazımov təmsil edirlər.

Astana Nazarbayev Mərkəzində öz işinə başlayan tədbirin ilk günündə iştirakçılar sərgi salonunda gənc alimlərin elmi işləri ilə tanış olublar.

Açılış mərasimində Qazaxıstan Respublikasının Birinci Prezidenti Fondunun icraçı direktoru Kanat Cumbaev forumun əsas məqsədinin öz ölkəsi ilə MDB respublikalarının elm və təhsil müəssisələri arasında əlaqələrin genişləndirilməsi, iştirakçı ölkələrin alimlərinin elmi-nəzəri və praktiki tədqiqatların ümumiləşdirilməsi və sistemləşdirilməsi istiqamətində fikir mübadiləsinin aparılması və perspektiv planların müəyyənləşdirilməsi olduğunu qeyd edib. Bildirilib ki, tədbir elm mütəxəssisləri üçün multidissiplinar əməkdaşlıq platformasına, həmçinin nüfuzlu alimlərin bir araya gətirilməsinə imkan verəcək.

Forumun plenar iclasında AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri Famin Salmanov "Azərbaycanda elmi gəncliyin inkişaf strategiyası və şuranın fəaliyyəti" mövzusunda məruzə ilə çıxış edib. O, çıxışında ölkəmizdə elm sahəsində son illərdə aparılan islahatlar, Azərbaycan elminin dünya elminə inteqrasiyası, elm-təhsil-innovasiya vəhdətinin yaradılması, gənc alimlərimizin beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi və bu istiqamətdə rəhbərlik etdiyi şuranın gördüyü işlər, eləcə də nəzərdə tutulan fəaliyyət planı haqqında məlumat verib.

Tədbir çərçivəsində "Təhsil və elm inteqrasiyası: təcrübə və perspektivlər" və "MDB ölkələrində qlobal elmi və texnoloji problemlərin həlli üçün gənclərin rolu" mövzularında panel müzakirələr aparılıb.

Forum avqustun 11-də başa çatacaq.

# Psixoloji maarifləndirilmə sahəsində birgə fəaliyyət

## Bilik Fondu "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi ilə niyyət protokolu imzalayıb

Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu ilə "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi arasında əməkdaşlığa dair niyyət protokolu imzalanıb. Mərkəzin "Gənclik" filialında keçirilmiş tədbirdə Bilik Fondunun icraçı direktoru, pedaqogika üzrə fəlsəfə doktoru Oktay Səmədov, "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi və "Psixoloji Xidmət və Tədqiqatlar" İctimai Birliyinin rəhbəri, psixologiya üzrə fəlsəfə doktoru Təranə Məmmədova, Fondun və Mərkəzin əməkdaşları iştirak ediblər.

Tədbirdə Bilik Fondunun "Tibbi maarifləndirmə" proqramı çərçivəsində əhalinin psixoloji maarifləndirilməsi istiqamətində birgə fəaliyyət imkanları, gələcək əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Bilik Fondunun icraçı direktoru O.Səmədov bildirib ki, hər iki qurum ölkə əhalisinin humanitar biliklərinin artırılması və psixoloji maarifləndirilməsi məqsədi ilə təşkilati və təbliğat xarakterli birgə tədbirlər həyata keçirmək, alim, tədqiqatçı və mütəxəssisləri intellektual-maarifçi fəaliyyətə cəlb etmək, inkişaf etmiş ölkələrin bu sahədə əldə etdikləri nailiyyətlərlə tanış etmək, əhaliyə psixoloji, psixopedaqoji və loqopedik xidmətlər sahəsində aktual problemlərin tədqiqi və təhlili ilə bağlı birgə elmi-praktik konfranslar, seminarlar, "dəyirmi masa"lar, diskussiya və disputlar keçirmək niyyətindədir.

Mərkəzin rəhbəri T.Məmmədova əhalinin psixoloji maarifləndirilməsi və psixoloji sağlamlığının təmin edilməsi ilə bağlı materialların hazırlanıb dövri mətbuatda və sosial şəbəkələrdə yayılmasında, sosioloji sorğuların keçirilməsi və təhlillərin aparılmasında,



psixoloq, psixopedaqoq, loqoped və psixoterapevtlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi ilə bağlı birgə layihələrin həyata keçirilməsində, ali məktəb tələbələri, gənc psixoloqlar, məktəb psixoloqları, səhiyyə və təhsil işçiləri üçün aktual mövzularda seminar və konfransların təşkilində, psixoloji dəstəyə ehtiyacı olan imkansız ailələr üçün xeyriyyə tədbirlərinin keçirilməsində birgə fəaliyyətin faydalı olacağına əmin olduğunu bildirib.

Fondun bölgələrdə fəaliyyət göstərən Bilik Evləri ilə Mərkəzin paytaxt və rayon filialları arasında əməkdaşlıq əlaqələrinin qurulmasının vacibliyi xüsusi olaraq qeyd edilib. Bildirilib ki, hər iki qurumun birgə fəaliyyəti nəticəsində müvafiq mövzularda çap materialları hazırlanacaq, maarifləndirici vərəqə, broşürlər, analitik materiallar və bukletlər əhali, o cümlədən xüsusi qruplar (şagirdlər, tələbələr, valideynlər, müəllimlər, psixoloqlar, reproduktiv yaşda olan qadınlar, psixoloji yardıma ehtiyacı olan pasiyentlər və s.) arasında paylanacaq.

Tərəflər imzalanmış sənəd əsasında birgə tədbirlər planının hazırlanması və sentyabr ayından icrasına başlanılması barədə razılığa gəliblər.

# Bilik Fondu - ali məktəb tələbələrinin təcrübə məkanı

**Elnarə AĞAOĞLU,**
*Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun məsləhətçisi*

## Burada gənclər bilik və bacarıqlarını təkmilləşdirir, təşkilatçılıq qabiliyyətinə yiyələnirlər

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu fəaliyyətə başladığı gündən mütəmadi olaraq müxtəlif məzmunlu maarifləndirici tədbirlər - elmi-kütləvi mühazirələr və təlimlər, "dəyirmi masa"lar və diskussiyalar, elmi konfranslar və seminarlar, bilik yarışmaları və müsabiqələr təşkil edir. Xalqın tarixi və mədəniyyətinin, dili və ədəbiyyatının təbliği, dövlətin daxili və xarici siyasətinin mahiyyətinin əhaliyə çatdırılması məqsədi ilə həyata keçirilən tədbirlər Fondun maarifləndirici proqramları əsasında gerçəkləşir.

İctimai-siyasi, sosial-iqtisadi, hüquqi, mədəni, tibbi və ekoloji maarifləndirmə proqramları davamlı xarakter daşıyır, əhalinin bütün təbəqələrini əhatə edir. Bu proqramlar üzrə müxtəlif məzmunlu layihələr və maarifləndirici tədbirlər yerli icra hakimiyyəti orqanları, Fondun şəhər və rayon nümayəndələri, bölgələrdə fəaliyyət göstərən Bilik Evləri tərəfindən daxil olan sosial sifarişlər, əhali arasında keçirilən sorğular əsasında təşkil olunur.

Maarifləndirici tədbirlərin təşkilində Bilik Fondu bir çox dövlət qurumları, nazirliklər və komitələr, idarə, müəssisə və təşkilatlarla sıx əməkdaşlıq edir. Bu sırada ali təhsil müəssisələri xüsusi yerə malikdir. Bilik Fondu mütəmadi olaraq ali məktəblərdə professor-müəllim və tələbə heyəti cəlb olunmaqla aktual mövzularda elmi konfranslar və "dəyirmi masa"lar, mühazirələr və təqdimatlar keçirir, intellektual müsabiqələr elan edir. Universitet müəllimləri Fondun elmi biliklərin müxtəlif sahələri üzrə şəhər və rayonlarda, qəsəbə və kəndlərdə təşkil etdiyi mühazirələrdə və maarifləndirici görüşlərdə fəal iştirak edir, öz fikir və mülahizələrini yerli auditoriya ilə bölüşür, azərbaycançılıq məfkurəsi zəminində milli-mənəvi dəyərlərimizi təbliğ edir, dövlətin daxili və xarici siyasətinin mahiyyətini dolğun şəkildə dinləyicilərə çatdırır, elmin kütləviləşməsinə xidmət göstərirlər.

Ali təhsil müəssisələri ilə əməkdaşlığın mühüm sahələrindən biri də universitetlərdə müxtəlif ixtisaslar üzrə təhsil alan tələbələrin istehsalat təcrübəsinin Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunda təşkilidir. Bu sahədə əməkdaşlığa 2015-ci ilin fevral ayından başlanılıb və bu günə kimi 7 universitetin 90 tələbəsi istehsalat təcrübəsini Bilik Fondunda keçib. Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Xəzər Universiteti, Bakı Avrasiya Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Beynəlxalq münasibətlər", "Regionşünaslıq", "Tərcümə", "Siyasi idarəetmə", "İnzibati idarəetmə" ixtisasları üzrə təhsil alan və Bilik Fonduna təcrübəyə gələn tələbələr Ölkədaxili layihələr, Beynəlxalq layihələr, İnformasiya təminatı sektorlarına və Ümumi şöbəyə təhkim olunurlar. Fond əməkdaşlarının rəhbərliyi altında təcrübə keçdikləri dövrdə tələbələr təkcə verilən tapşırıqları yerinə yetirməklə kifayətlənmir, həm də maarifləndirici proqram və layihələr çərçivəsində təşkil olunan tədbirlərdə fəal iştirak edirlər. Alim və tədqiqatçıların müəssisə və təşkilatlarda keçirilən mühazirələrində, müxtəlif sahələr üzrə təşkil olunan təlim kurslarında, AMEA institutları ilə tanışlıq görüşlərində, kitab və film təqdimatlarında, xarici ölkələrin səfirləri ilə işgüzar görüşlərdə, Fondun "Tariximizi öyrənək və öyrədək", "Gənc jurnalistlər" klublarının tədbirlərində, bilik yarışmaları və intellektual müsabiqələrdə, ekskursiyalar və xeyriyyə tədbirlərində iştirak edən tələbələr həm nəzəri, həm də praktiki biliklərə yiyələnirlər.

Təcrübəçi tələbələrin böyük həvəslə qatıldıqları tədbirlərdən biri də beynəlxalq elmi konfranslardır. Tədbirə hazırlıq mərhələsində, konfrans iştirakçılarının məruzə mətnlərinin toplanması, qruplaşdırılması və nəşrə hazırlanması, iştirakçılarla əlaqələrin qurulması, qonaqların dəvət olunması, bölmə iclaslarının təşkili və idarə olunması kimi vacib işlərdə tələbələr öz təşkilatçılıq qabiliyyətlərini nümayiş etdirir, yeni bilik və bacarıqlara yiyələnirlər.

Fondun təşkilatçılığı ilə keçirilmiş bir sıra elmi tədbirlərin, o cümlədən 2016-cı ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Müasir Azərbaycan ulu öndər Heydər Əliyev ideyaları işığında" mövzusunda Şagird-Tələbə Elmi Konfransının, bir il sonra dahi şəxsiyyətin anadan olmasının 94-cü ildönümünə və "İslam Həmrəyliyi İli"nə həsr edilmiş "Bir günəşin zərrəsiyik" mövzusunda II Beynəlxalq Şagird Konfransının, 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə və ümummilli liderin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Azərbaycan: müasirlik və gələcəyin qovuşuğunda" mövzusunda III Beynəlxalq Şagird Konfransının və Bilik Fondunun "Tariximizi öyrənək və öyrədək" Gənclər Klubu üzvlərinin "Azərbaycan Cümhuriyyəti gənclərin gözü ilə" mövzusunda elmi-praktik konfransının təşkilində təcrübəçi tələbələrin böyük əməyi olub.

Təcrübə keçdikləri dövrdə xüsusi fəallıqları ilə seçilən tələbələrə Bilik Fondunun müvafiq sertifikatları ilə yanaşı, "Təşəkkürnamə"lər, müsabiqələrdə qalib çıxan gənclərə "Diplom"lar və Fondun kitab hədiyyələri təqdim olunub.

Bilik Fondunda təcrübə keçən tələbələrə alim və tədqiqatçıların iştirakı ilə bölgələrdə gerçəkləşən elmi turlarda və ekskursiyalarda, elm və mədəniyyət xadimləri ilə keçirilən görüşlərdə, teatr tamaşaları və film nümayişlərində, müzakirələrdə və təqdimatlarda iştirak etmək, təcrübə dövründə hazırladıqları təqdimatlarla həmyaşıdları və məktəblilər qarşısında çıxış etmək, yaradıcılıqlarını nümayiş etdirmək imkanı yaradılır.

Cari ildə Bilik Fondunda təcrübə keçən tələbələr Quba Soyqırımı Memorial Kompleksini ziyarət edib, təəssüratlarını Azərbaycan Dövlət Televiziyasının "Səhər" informasiya proqramında bölüşüblər. Bir qrup tələbə paytaxt məktəblərində Novruz adət və ənənələrinə həsr olunmuş və nəfis tərtibatla hazırlanmış təqdimatlarla çıxış ediblər.

Ötən il tələbələrin Bilik Fondunda təşkil olunmuş təcrübələri maraqlı sonluqla yadda qalıb. Fondun İnformasiya təminatı sektorunun tapşırığı ilə 10 Azərbaycan xalq nağılını ingilis dilinə tərcümə etdikdən sonra peşəkar tərcüməçi tərəfindən redaktə edilmiş və yüksək qiymətləndirilmiş mətnlər toplu şəklində və hər iki dildə nəfis tərtibatla nəşr edildi. Kitab işıq üzü gördükdən sonra təhsilini başa vurmuş tələbələrdən birinin hərbi xidmətə çağırıldığı məlum oldu. Bilik Fondunun kollektivi tərəddüd etmədən toplunun ilk təqdimatını Fondda təcrübədə olmuş məzunun xidmət etdiyi hərbi hissədə keçirməyi qərara aldı. Əsgərin valideynlərinin, komandirləri və silahdaşlarının iştirakı ilə keçirilmiş tədbir böyük maraqla qarşılandı.

Bu il tələbələrin təcrübə dövründə tərtib etdikləri iki məlumat ədəbiyyatı nümunəsi - "Beynəlxalq təşkilatlar" və "Yunanıstan" kitabçaları da artıq çapa hazırlanmış və rəy bildirmək üçün "Beynəlxalq münasibətlər" və "Regionşünaslıq" ixtisasları üzrə peşəkar mütəxəssislərə təqdim edilmişdir.

Sadaladığımız faktlar təcrübəçi tələbələrin yaradıcı fəaliyyətinin nə dərəcədə zəngin və rəngarəng olduğunu göstərir. Fondda təcrübə keçən tələbələr həm təhsil aldıqları ixtisaslar üzrə bilik və bacarıqlarını təkmilləşdirmiş olurlar, həm də təşkilatçılıq qabiliyyətinə yiyələnir, kargüzarlıq və sənədləşmə işlərinin xüsusiyyətlərini öyrənirlər. Sözsüz ki, təcrübə dövründə əldə edilmiş bilik və bacarıqlar gənclərin gələcək peşə fəaliyyətində onlara yardımçı olacaq, üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə kömək edəcəkdir.

Təcrübəni başa vurmuş tələbələrin bir çoxu Bilik Fondu ilə əlaqələrini kəsmir, asudə vaxtlarında burada keçirilən tədbirlərə qatılır, özlərinə doğma bildikləri kollektivin üzvləri ilə görüşürlər. Onlarla Fondun "Tariximizi öyrənək və öyrədək", "Gənc jurnalistlər", "Diplomatlar" klublarının tədbirlərində, xarici dil kurslarının məşğələlərində rastlaşırıq. Hər dəfə istehsalat təcrübəsi başa çatdıqdan sonra Bilik Fondunun Könüllülər Birliyi üzvlərinin də sayı artmış olur.

Qarşıda yeni tədris ili gəlir. Ali məktəb tələbələrinin Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunda təşkil olunan istehsalat təcrübəsində də yeniliklər gözlənilir. Kollektivimiz tələbələrin təcrübəsini daha maraqlı və məhsuldar etmək, gənclərin elmi biliklərə maraqlarının artırılması, tanınmış alim və tədqiqatçılarla canlı ünsiyyətdən faydalanması məqsədilə daha məzmunlu və rəngarəng tədbirlər həyata keçirmək, təcrübənin müəyyən bir hissəsini Fondun əməkdaşlıq etdiyi müvafiq müəssisə və təşkilatlarda, o cümlədən bölgələrdə fəaliyyət göstərən Bilik Evlərində təşkil etmək, ali məktəblərə təcrübə ilə bağlı yeni təkliflər paketi təqdim etmək niyyətindədir.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

# Ageing politics

by A. J. Dalton (amended by Jon Porter)

Would you like to be a politician? If you were a politician, what would be most important to you: changing your society for the better or representing the views of the people? In the UK, there are worrying signs that the British people don't believe their politicians do either of these things.




The number of British people choosing to vote has generally been falling for over half a century. In the 1992 general election, 78 per cent of the electorate voted, while in 1997 only 71 per cent of those eligible to vote decided to do so. Then, in 2001, the voter turnout was only 59 per cent. There was a slight improvement in 2005 with 61 per cent, but that rise was probably because of the introduction of the 'postal ballot' (being able to vote by post) in 2004. There were problems with fraud around this postal ballot, so we can't say the 2005 figure definitely represented an increase. In some areas of the country in 2005, only a third of voters exercised their right to vote at the polling station.

The last two elections have seen slight improvements, with 65 per cent in 2010 and 66 per cent in 2015, but overall there is still a general trend of increasing voter apathy. So what's going on in the UK? Have the people lost faith in their politicians? Well, I'm afraid to say that it looks like they have. The biggest falls in the number of people voting have been among young people and ethnic minorities. Traditionally, like in many other countries, it is the UK's university students who have always been the most politically active group in society. So, if this group is choosing not to vote, something is going wrong in the political system. Perhaps not voting is a way of protesting. One popular joke is that it doesn't matter who you vote for, because the government always gets elected!

In the UK, the older generation will often be heard to say to young people: 'People died so that you could vote! It's your duty to vote!' It is true that many have died to give democratic rights to the people. We could go back to the Magna Carta, the document that first began to protect the rights of the people, and which King John was forced to sign in 1215 after much fighting. We could point to the English Civil Wars of the 17th century, when Parliament broke away from the rule of the monarch. Then there was Emily Davison, the suffragette who died in 1913 and helped women win the right to vote. Or you may think of the Second World War, in which many died fighting against the totalitarian dictatorships of Hitler, Stalin and Mussolini. People have died throughout UK history so that people of all classes have the right to vote in democratic elections. At the same time, however, we must remember that democracy also gives people the right to choose not to vote. When UK people choose not to vote, they are not necessarily being lazy or disrespectful.They might actually be protesting through 'passive resistance', the sort of approach taken by the Polish people quite successfully during the Second World War when their country was occupied by the army of a foreign dictator.

Are things likely to improve quickly in the UK? Probably not. You may have heard about the 'expenses scandal' in the UK. In 2009 the British people found out that a significant number of their politicians were claiming large and unreasonable amounts of money for their 'living expenses'. That money comes from the British people's taxes. As a result of the scandal, a significant number of politicians lost their jobs, and the confidence of British voters in politicians was damaged. In that year's European Parliament elections, only 34 per cent of the British electorate voted, which was well below the European average of 43 per cent.

In one recent survey, members of the public were asked to say how much they trusted people from different professions. While 85 per cent said they trusted nurses and doctors, the figure for politicians was second to last at just 16 per cent.The only profession the public trusted less than politicians was tabloid journalists! So British politicians have a very long way to go to save their reputation and to persuade young people and ethnic minorities to start voting again.

### Activity 1: Vocabulary

Look at the definitions and find the right word from the article.

1 speaking for someone else = ....... p ...................... ing
2 opinions = v ...............
3 The place where votes are cast = .......................... station
4 cheating = f ................
5 king or queen = m .....................
6 discovered = ............... out
7 harmed = ................. ged

### Activity 2: Comprehension

According to the article, have the following things been successful (S) or unsuccessful (U)?

1 the postal ballot
2 the fight for democracy in the UK
3 passive resistance
4 politicians claiming living expenses
5 politicians earning the trust of the public
6 persuading young people to vote

### Activity 3: Reflection

Thinking about the article, ...

1 if you were a British voter, what could politicians do to earn your trust?
2 if you were a British politician today, what would you consider the UK's biggest problem to be?
3 if you were an ethnic minority living in the UK today, what changes would you like to see?

# Fun corner

Do you know much about political parties in the UK?
See if you can match the colour and symbol of each party.

| Party | Colour | Symbol |
|---|---|---|
| The Labour Party | | |
| The Conservative Party | | |
| The Liberal Democrats | | |

dove blue rose
tree orange red

# Word of the day

A **'floating voter'** is someone who easily changes their mind about which political party they wish to vote for. In deciding who to vote for, they are often influenced by the media and the current events in the country.




**Answers**

Activity 1
1 representing
2 views
3 polling station
4 fraud
5 monarch
6 found out
7 damaged

Activity 2
1 U
2 S
3 S
4 U
5 U
6 U

Fun corner
The Labour Party – red, rose
The Conservative Party – blue, tree
The Liberal Democrats – orange, dove

Want to find more learning activities?
Visit www.britishcouncil.org/learnenglish

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2016

# 12 yaşında tələbə oldu

## "Mən sadəcə oxumaq istəyirəm..."



**Oruc MUSTAFAYEV**

Meksikadan olan istedadlı uşaq, 12 yaşı təzəcə tamam olmuş Karlos Antonio Santamariyu tarixdə ilk dəfə olaraq Meksikanın ən böyük Milli Muxtar Universitetinin tələbəsi olmaq hüququ qazanıb. Universitetin məlumatında bildirilir ki, Karlosu adıçəkilən ali məktəbdə doqquz yaşından tanıyırlar, o, hələ 3 il əvvəl analitik kimya, biokimya və molekulyar biologiya üzrə kursları bitirərək dərəcə alıb. Sonrakı təhsil üçün o, biotibbi fizikanı seçib. Karlos bu ixtisas üzrə avqustun 6-dan dərslərə başlayıb. "O, universitetin auditoriyalarına valideynlərinin əllərindən tutaraq daxil olan ilk tələbə olacaq", - deyə ali məktəbin məlumatında bildirilir. Ali təhsil müəssisəsinə daxil olmaq imkanını qazanmaq üçün yeniyetməyə orta məktəbdə kamal attestatı imtahanlarını vermək lazım olub. "Mən sadəcə oxumaq istəyirəm: əgər bunun üçün qapıları mənə bağlayacaqlarsa, mən pəncərədən universitetə girəcəyəm", - azyaşlı tələbə deyib. ABŞ-ın Meksikadakı səfirliyi də istedadlı uşağın ünvanına təbrik məktubu göndərib. Diplomatlar onu məksikalı azyaşlı istedad və dahi adlandırıblar.

# Peşə Liseyində avtobus və yük avtomobili simulyatoru quraşdırılıb

## Şagirdlərə nəzəri, həm də praktiki təlimlər keçmək mümkün olacaq

**Şakir CƏFƏROV**

Peşə təhsili və təlimini yaxşılaşdırmaq məqsədilə Lənkəran Peşə Liseyində avtobus və yük avtomobili simulyatoru quraşdırılıb. Yeni simulyator vasitəsilə şagirdlərə həm nəzəri, həm də praktiki təlimlər keçmək mümkün olacaq.

Peşə liseyindən aldığımız məlumata görə, yeni simulyator Təhsil Nazirliyinin sifarişi ilə fransalı mütəxəssislər tərəfindən quraşdırılıb. Azərbaycanın yol və iqlim şəraitinə, yol hərəkəti qaydalarına uyğun proqramlaşdırılmış simulyatorda 5000-dən artıq tapşırığı icra etmək mümkündür. Avto simulyatorda həm sərnişin, həm də yük daşıyan nəqliyyat vasitələrini idarə edə bilmək üçün geniş imkanlar var. Sükan arxasında əyləşən sürücü idarəetməni sona çatdırdıqda onun hərəkəti proqram vasitəsilə qiymətləndirilir. Yeni simulyatorun proqram təminatı Azərbaycan dilində yazılıb.

Yeni avadanlıqla tanışlıqdan sonra istifadə qaydaları Aviasiya və Avtomobil Nəqliyyatı üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi, Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsili Mərkəzi və Cəlilabad Rayon Peşə Liseyindən gələn əməkdaşlara izah olunub.


**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya №** 022327, **İndeks:** 0003, **Tiraj** 4554, **Sifariş** 2378

**Məsul növbətçi:** S.Kərimova


# Azərbaycan gimnastının ABŞ-da uğuru

## 13 yaşlı Fərəh Vəliyeva beynəlxalq turnirin bürünc medalını qazanıb

**Sifai SƏFƏROVA**

Arizona ştatının Finiks şəhərində keçirilmiş aerobika gimnastikası üzrə beynəlxalq turnirdə həmyerlimiz Fərəh Vəliyeva AG1 kateqoriyasında (12-14 yaş) ABŞ çempionu adına layiq görülüb və topladığı balların sayına görə 15 ölkəni təmsil edən 43 iştirakçı arasında bürünc medal qazanıb.

ABŞ-ın Milli Aerobika Çempionatları Assosiasiyası (ANAC) tərəfindən təşkil olunmuş illik yarışda aerobika təmsilçiləri AeroDans kateqoriyasının fərdi, qarışıq cütlük, üçlük və qrup hərəkətlərində mübarizə aparıblar. Builki turnirdə ABŞ, Kanada, Yaponiya, Sinqapur, Avstraliya, Yeni Zelandiya, Hindistan, Argentina, Çin, Almaniya, Peru, Kolumbiya, Venesuela, Meksika və Uruqvay təmsil olunub.

Qeyd edək ki, Fərəh Vəliyeva 2016-cı ildə aerobika gimnastikası üzrə Bakı çempionatının gümüş medalını, 2016-2017-ci illərdə Azərbaycan çempionu adını qazanıb. 2017-ci ildə Plovdivdə (Bolqarıstan), Peçdə (Macarıstan) və Bakıda keçirilən beynəlxalq yarışlarda uğurlu çıxış edərək fəxri fərman və diplomlarla mükafatlandırılıb.




# Müəllimlə ünsiyyət

## Təhsildə ən mühüm faktor

Təlim zamanı müəllimlərlə daha çox ünsiyyət saxlayan tələbələr özlərini psixoloji cəhətdən daha yaxşı hiss edir və böyük müvəffəqiyyətlərə nail olurlar. Amerika universitetlərinin 70 min məzunu arasında keçirilmiş sorğunun (Gallup-Purdue Index) nəticələri bunu deməyə əsas verir.

Tədqiqatçılar ali məktəbdə təhsil zamanı yaşanan həyəcanların "böyük altılığ"ını müəyyən ediblər. Onlardan 3-ü müəllimlərlə ünsiyyətə aiddir: "Ali məktəbdə oxuduğum vaxt məni daim ruhlandıran müəllimim vardı", "Mənimlə şəxsiyyət kimi davranan müəllimim var idi", "Məni daim ürəkləndirən və hədəflərə nail olmağa təlsdirən mentorum var idi". Nəticələr müəllimləri ilə sıx əlaqədə olan məzunların karyeralarında, şəxsi və sosial həyatda daha çox uğur qazana biləcəklərini göstərib.

Ünsiyyətdən başqa, ən əhəmiyyətli 6 universitet fəallığına eyni layihə üzərində bir semestrdən daha çox iş təcrübəsi, stajkeçmə və ya tədrisdə qazanılan nəzəri biliklərin tətbiqinə yönəlik iş, yaradıcı və ictimai fəaliyyət sahəsində aktivlik də daxildir.

Qallop-Perdyu indeksi, 2014-cü ildən Perdyu Universiteti və Qellop Fondu tərəfindən keçirilən ali təhsilin nəticələrinin ölçülməsidir. Tədqiqat belə bir fərziyyəyə əsaslanır ki, ali məktəblərin işinin məhsuldarlığının ən yaxşı göstəricisi onların məzunlarının istər karyerada, istərsə də şəxsi həyatda qazandığı müvəffəqiyyətlərdir.

# Onlayn mərkəz

## Valideynlər üçün yeni imkan

Rusiyanın Maarif Nazirliyi və milli valideyn assosiasiyası valideynlərə informasiya dəstəyinin göstərilməsi üçün onlayn mərkəz təsis edib. Yeni portal valideynlər üçün müxtəlif təşkilat, informasiya-maarifçilik resursları və tədbirlər üzrə naviqator funksiyası daşıyır. Portal valideynlərə təhsil sisteminin detallarını çatdırmaqda kömək edəcək.

Yeni saytın bölmələri arasında - "Xəbərlər", "Məsləhətlər və valideynlərə tövsiyələr", "Mərkəzlər və valideyn maarifləndirici proqramları", "Müsabiqələr" və "Valideynlər üçün sorğular" qeyd etmək olar. "Portalda ailə və təhsil hüququ üzrə, uşaqlara onların həyatına təhlükə törədən vəziyyətlərdə necə kömək etmək barədə məsləhətlər almaq, hadisələrin təqvimi ilə tanış olmaq və sorğularda iştirak etmək mümkündür", - Rusiya Maarif Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

# Süni intellekt ev tapşırıqlarını yoxlayır

## Gradescope 2.75 milyon dollar investisiya alıb

Tədris tapşırıqlarının yoxlanması üçün yaradılmış Gradescope süni intellekt platforması 2.75 milyon dollar investisiya alıb. Bu, avtomatik qiymətləndirmənin inkişafını sürətləndirəcək.

Gradescope universitetlərin və orta məktəblərin yuxarı sinif müəllimlərinə təhsilalanların tədris tapşırıqlarının yoxlanmasına sərf etdiyi vaxtı və səyləri azaltmağı təklif edir. Platforma skanerdən çıxarılmış tapşırıqda şagirdin xəttini tanıyır və onu düzgün cavabla müqayisə edir. O, avtomatik qiymət qoyur və şərhləri yaradır: əsas səhvlər nəylə bağlıdır və onları hansı prinsip birləşdirir. İşlərin ümumi statistikası və ən əsası bütün sinfin səhvləri sayəsində müəllim dərhal anlaya bilər ki, təhsilalanlar hansı mövzuda geridə qalır və nələrə əlavə vaxtı həsr etməyə dəyər. Yaradıcıların sözlərinə görə, ötən il ərzində adıçəkilən platformadan 600 institut, kollec və məktəb istifadə edib. 40 milyondan çox imtahan işi və ev tapşırığı yoxlamadan keçib. 2017-ci ilin sonunda "Gradescope" komandası süni intellektin köməyi ilə qiymətləndirmənin sürətini 10 dəfə artırmaq üçün ABŞ-ın Milli Elmi Fondunun qrantını alıb.

# Etibarsız sayılır

**Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti** tərəfindən Zeynalov Yaşar Arif oğluna məxsus Bakı şəhəri, Səbail rayonu Neftçi Qurban Abbasov küçəsi, ev 76, mənzil 19-a verilmiş N-0273984 nömrəli çıxarış itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Tibb Texnikumu** tərəfindən 2000-ci ildə Feyziyeva Vəsilə Orduxan qızına verilmiş AB-II-067571 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 308 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş İsgəndərov Hidayət Vaqif oğluna verilmiş 310020 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayonu** Şahvəli kənd tam orta məktəbini 2012-ci ildə bitirmiş Əliyev Röyal Ədalət oğluna verilmiş A-138646 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2016-cı ildə Əliyev Röyal Ədalət oğluna verilmiş A-092334 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** tərəfindən 2003-cü ildə Rzayeva Samirə Eldar qızına verilmiş AB-II-103419 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 52 nömrəli tam orta məktəbi 1982-ci ildə bitirmiş Şirinzadə Mənzər Arif qızına verilmiş 069785 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 214 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Mamedova İnqa Tofiq qızına verilmiş 069623 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 3 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Rufullayev Ceyhun Gülverdi oğluna verilmiş A-307660 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Rəsulzadə Cavid Müşviq oğluna verilmiş E-150673 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ Peşə Məktəbi** tərəfindən 1995-ci ildə Tağıyev Elnur Elbrus oğluna verilmiş 3-098934l nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 9 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Səfərova Natavan Bahadur qızına verilmiş B-464298 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Müqtədir qəsəbə tam orta məktəbini 1998-ci ildə bitirmiş Şixəliyev Azad Güləhməd oğluna verilmiş A-231893 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 221 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Maryutina Svetlana Viktorovnaya verilmiş AK-363533 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 158 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Səfərova Dilbər Qənbərovnaya verilmiş A-169441 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 6 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş İbadov Vüsal İbad oğluna verilmiş A-323357 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2012-ci ildə Şahgəldiyev Hümmət Ədalət oğluna verilmiş BC-245594 və 2015-ci ildə verilmiş A-078719 nömrəli bakalavr diplomları itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 2 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Salmanzadə Salman Sərvər oğluna verilmiş A-263678 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** A.S.Puşkin adına tam orta məktəbi 2002-ci ildə bitirmiş İbrahimova Aynurə Hilal qızına verilmiş A-563237 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** M.Ələkbərov adına tam orta məktəbi 2006-cı ildə bitirmiş Hüseynova (Vəliyeva) Türkanə Rafiq qızına verilmiş 352115 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2011-ci ildə Məmmədova Gülşən Zakir qızına verilmiş B-210615 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Mühəndislik Universiteti** tərəfindən 2014-cü ildə Nəbizadə Fatimeyizəhra Nemət qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** Düşərgə qəsəbə tam orta məktəbinin IX sinfini 2003-cü ildə bitirmiş Mehdiyeva Aidə Arif qızına verilmiş B-625806 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 181 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Mustafayeva Səidə Səfər qızına verilmiş 108850 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Plan-İqtisad Texnikumu** tərəfindən 2002-ci ildə Quliyeva Pakizə İskəndər qızına verilmiş AB-II-080707 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2018-ci ildə Bülek Mustafa Abdulkadıra verilmiş A-149692 nömrəli bakalavr diplomu və diploma əlavə və 2014-cü ildə verilmiş TN-010281 nömrəli hazırlıq kursu şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2014-cü ildə Salih Savaşlı Cengiz Topele verilmiş TN-010283 nömrəli hazırlıq kursu şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Rəhimova Əsmər İmran qızına verilmiş 530751 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Yüngül Sənaye Texnikumu** tərəfindən 2004-cü ildə Mikayılova Nərgiz Həsən qızına verilmiş AB-II-105569 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

# Dünyanın gənc universitetləri mövqelərini gücləndirir

**Oruc MUSTAFAYEV**

## Mühəndislik və texnologiyalar əsas trendlər kimi çıxış edir

Müasir dünyanın trendləri ali məktəblər arasında rəqabəti gündən-günə gücləndirməkdədir. Bu rəqabətlilik şəraitində dünyanın yaşı 50-dən az olan ali məktəbləri də öz mövqelərini gücləndirərək ən nüfuzlu dünya liderlərindən geridə qalmadıqlarını əyani surətdə göstərməkdədir.

Artıq bir neçə ildir ki, dünyanın son 50 ildə yaradılmış ən gənc ali məktəblərinin reytinqini tərtib edən Böyük Britaniyanın “The Times Higher Education” dərgisi növbəti dəfə bu mövzuya müraciət etməklə 2018-ci il üzrə gənc ali məktəblərin artan fəallığına diqqət çəkib. Növbəti reytinqdə (THE Young University Rankings) yaşı 50-yə qədər olan 250 ali məktəb (ötən il 200) yer alıb. Reytinqdə ilk 3 sırada Çinin əsası 1991-ci ildə qoyulmuş Honkonq Elm və Texnologiyalar Universiteti, İsveçrənin əsası 1969-cu ildə qoyulmuş Lozanna Federal Texnik Məktəbi (1969-cu ildə Lozanna Universitetindən ayrılıb) və Sinqapurun əsası 1981-ci ildə qoyulmuş Nanyanq Texnologiya Universiteti (institut kimi yaradılıb, 1991-ci ildə universitet statusu alıb) yerləşiblər. Honkonq Elm və Texnologiyalar Universiteti dünyanın ən gənc və ən yaxşı ali məktəbi kimi tədris mühitini yaxşılaşdırmaqla, elmi tədqiqatlar üçün geniş imkanlar təqdim etməklə, elmi məqalələrdən sitatgətirilmənin səviyyəsi və beynəlxalq perspektivlər sayəsində lider mövqeyə çıxıb.

Ümumiyyətlə, reytinqin ilk 10-luğunda təmsil olunan 6 ali məktəb mühəndislik və texnologiyalar sahəsində diqqətəlayiq nailiyyətləri ilə ön sıradadır. Böyük Britaniya reytinqdə ən çox təmsilçiliyə (31 universitet) malik olsa da ən yaxşı 40 ali məktəb arasında bu ölkədən yer alan ali təhsil müəssisəsi yoxdur. Avstraliya reytinqdə 22 ali məktəblə təmsil olunub. Onlardan ən yaxşı mövqeni Sidney Texnologiya Universiteti (16-cı yer) tutub. İlk 100 ən yaxşı ali məktəb arasında Türkiyə Koç Universiteti (40-cı yer), Sabançı Universiteti (45-ci yer), Bilkənt Universiteti (91-ci yer), Rusiya isə cəmi bir ali məktəblə - Ali İqtisad Məktəbi ilə (84-cü yer) təmsil olunub.

Bütövlükdə reytinqdə Avropa, Avstraliya, Asiya, Şimali Amerika, Latın Amerikası və Afrikanın 55 ölkəsi yer alıb. Ali məktəblər qlobal reytinqlərdə olduğu kimi 13 kriteriya əsasında qiymətləndiriliblər. Daha ətraflı *www.timeshighereducation.com/world-university-rankings/2018/young-university-rankings* səhifəsindən tanış olmaq olar.

| Reytinq | Ali məktəbin adı | Ölkə | Tələbələrin ümumi sayı | Tələbə-müəllim nisbəti | Beynəlxalq tələbələr |
|---|---|---|---|---|---|
| 1. | Hong Kong University of Science and Technology | Honkonq | 10214 | 23.1 | 31% |
| 2. | École Polytechnique Fédérale de Lausanne | İsveçrə | 9928 | 11.2 | 55% |
| 3. | Nanyang Technological University | Sinqapur | 25499 | 16.3 | 31% |
| 4. | Paris Sciences & Lettres – PSL University | Fransa | 19978 | 10.1 | 25% |
| 5. | Maastricht University | Niderland | 16727 | 18.0 | 50% |
| 6. | Korea Advanced Institute of Science and Technology | Cənubi Koreya | 9464 | 10.6 | 9% |
| 7. | City University of Hong Kong | Honkonq | 9240 | 11.2 | 35% |
| 8. | Pohang University of Science and Technology | Cənubi Koreya | 3046 | 10.4 | 4% |
| 9. | Scuola Superiore Sant’Anna | İtaliya | 690 | 11.7 | 14% |
| 10. | University of Alabama at Birmingham | ABŞ | 15703 | 15.2 | 6% |
| 11. | Pompeu Fabra University | İspaniya | 11172 | 20.8 | 12% |
| 12. | University of Luxembourg | Lüksemburq | 4969 | 14.6 | 57% |
| 13. | Autonomous University of Barcelona | İspaniya | 32309 | 12.9 | 16% |
| 14. | Pierre and Marie Curie University | Fransa | 25117 | 12.3 | 20% |
| 15. | University of Antwerp | Belçika | 16056 | 35.2 | 16% |
| 16. | University of Technology Sydney | Avstraliya | 25256 | 43.6 | 37% |
| 17. | University of Potsdam | Almaniya | 20066 | 59.1 | 10% |
| 18. | Hong Kong Polytechnic University | Honkonq | 21773 | 26.9 | 25% |
| 19. | University of Duisburg-Essen | Almaniya | 41916 | 53.8 | 13% |
| 20. | Queensland University of Technology | Avstraliya | 35211 | 37.0 | 17% |
| 21. | Paris-Sud University | Fransa | 27221 | 14.5 | 16% |
| 22. | Aalto University | Finlandiya | 12744 | 20.2 | 20% |
| 23. | Vita-Salute San Raffaele University | İtaliya | 2598 | 7.1 | 5% |
| 24. | Ulsan National Institute of Science and Technology | Cənubi Koreya | 4046 | 14.3 | 7% |
| 25. | Aalborg University | Danimarka | 15512 | 13.6 | 13% |
| 26. | University of South Australia | Avstraliya | 17575 | 25.8 | 41% |
| 27. | University of Passau | Almaniya | 11804 | 74.8 | 9% |
| 28. | James Cook University | Avstraliya | 11867 | 22.5 | 12% |
| 29. | Bielefeld University | Almaniya | 23683 | 66.8 | 8% |
| 30. | University of Bayreuth | Almaniya | 12917 | 37.9 | 8% |
| 31. | University of Texas at Dallas | ABŞ | 22967 | 25.4 | 25% |
| 32. | University of Wollongong | Avstraliya | 16947 | 27.0 | 24% |
| 33. | Paris-Sorbonne University – Paris 4 | Fransa | 22042 | 30.2 | 15% |
| 34. | University of Bremen | Almaniya | 19040 | 34.2 | 11% |
| 35. | Paris Diderot University – Paris 7 | Fransa | 27992 | 14.9 | 17% |
| 36. | Swedish University of Agricultural Sciences | İsveç | 3812 | 4.4 | 4% |
| 37. | Griffith University | Avstraliya | 31772 | 22.3 | 19% |
| 38. | Medical University of Vienna | Avstriya | 7209 | 2.7 | 28% |
| 39. | TU Dortmund University | Almaniya | 32870 | 99.6 | 10% |
| 40. | Koç University | Türkiyə | 5172 | 14.9 | 10% |
| =41. | Gwangju Institute of Science and Technology | Cənubi Koreya | 1731 | 11.5 | 6% |
| =41. | Medical University of Graz | Avstriya | 3323 | 6.9 | 23% |
| =43. | Charles Darwin University | Avstraliya | 6551 | 22.4 | 32% |
| =43. | University of Eastern Finland | Finlandiya | 11459 | 18.3 | 6% |
| =43. | Sabancı University | Türkiyə | 3247 | 20.0 | 9% |
| 46. | Grenoble Alpes University | Fransa | 39298 | 17.0 | 15% |
| =47. | Aix-Marseille University | Fransa | 66623 | 16.8 | 12% |
| =47. | Brighton and Sussex Medical School | Böyük Britaniya | 761 | 12.1 | 16% |
| 49. | Khalifa University of Science and Technology | Birləşmiş Ərəb Əmirlikləri | 3134 | 8.3 | 32% |
| 50. | Deakin University | Avstraliya | 36768 | 32.9 | 17% |
| =51. | George Mason University | ABŞ | 27749 | 17.5 | 8% |
| =51. | Rush University | ABŞ | 2437 | 2.1 | 3% |
| =53. | Free University of Bozen-Bolzano | İtaliya | 3304 | 11.6 | 12% |
| =53. | Victoria University | Avstraliya | 14795 | 31.4 | 20% |
| 55. | Babol Noshirvani University of Technology | İran | 4749 | 28.6 | n/a |
| 56. | University of Bordeaux | Fransa | 52526 | 21.0 | 12% |
| 57. | National Taiwan University of Science and Technology | Tayvan | 7981 | 18.7 | 13% |
| 58. | University of Canberra | Avstraliya | 11438 | 30.3 | 28% |
| 59. | Cyprus University of Technology | Kipr | 3072 | 18.7 | 8% |
| 60. | University of Macau | Makau | 9230 | 14.5 | 33% |
| 61. | Montpellier University | Fransa | 39828 | 19.9 | 14% |
| =62. | University of Crete | Yunanıstan | 14522 | 26.2 | 4% |
| =62. | Örebro University | İsveç | 8800 | 16.4 | 2% |
| 64. | University of Cyprus | Kipr | 6989 | 23.1 | 9% |
| =65. | Swinburne University of Technology | Avstraliya | 13269 | 24.7 | 25% |
| =65. | Université de Versailles Saint-Quentin-en-Yvelines | Fransa | 17323 | 22.4 | 14% |
| 67. | Hamburg University of Technology | Almaniya | 7391 | 55.1 | 19% |
| 68. | Curtin University | Avstraliya | 31483 | 18.5 | 37% |
| =69. | University of Milan-Bicocca | İtaliya | 34245 | 48.4 | 7% |
| =69. | University of Salerno | İtaliya | 37230 | 51.4 | 1% |
| 71. | Western Sydney University | Avstraliya | 32744 | 34.0 | 13% |
| 72. | University of Siegen | Almaniya | 19339 | 49.2 | 11% |
| =73. | Autonomous University of Madrid | İspaniya | 29305 | 13.4 | 13% |
| =73. | University of Côte d’Azur | Fransa | 33839 | 21.8 | 23% |
| =73. | Linköping University | İsveç | 18740 | 8.1 | 11% |
| =73 | Murdoch University | Avstraliya | 15526 | 30.7 | 48% |
| =73. | University of Texas at San Antonio | ABŞ | 25945 | 25.8 | 6% |
| =78. | Federal University of Toulouse Midi-Pyrénées | Fransa | 98538 | 24.6 | 17% |
| =78. | University of Rovira i Virgili | İspaniya | 12604 | 12.6 | 10% |
| =80. | Dublin City University | İrlandiya | 9180 | 25.5 | 17% |
| =80. | Maynooth University | İrlandiya | 8361 | 30.6 | 12% |
| 82. | University of Kaiserslautern | Almaniya | 14493 | 52.5 | 16% |
| 83. | University of KwaZulu-Natal | Cənubi Afrika Respublikası | 32023 | 25.3 | 5% |
| =84. | Hasselt University | Belçika | 5045 | 19.0 | 12% |
| =84. | Higher School of Economics | Rusiya Federasiyası | 17241 | 9.5 | 7% |
| 86. | Plymouth University | Böyük Britaniya | 18336 | 18.0 | 15% |
| 87. | Qatar University | Qətər | 13342 | 17.6 | 42% |
| 88. | Verona University | İtaliya | 24582 | 20.6 | 6% |
| 89. | Reykjavík University | İslandiya | 3206 | 29.4 | 6% |
| 90. | University of Calabria | İtaliya | 28313 | 35.1 | 3% |
| 91. | Bilkent University | Türkiyə | 10007 | 14.4 | 5% |
| 92. | University of Rome II – Tor Vergata | İtaliya | 32325 | 17.9 | 6% |
| 93. | CentraleSupélec | Fransa | 4226 | 11.6 | 33% |
| =94. | University of Bergamo | İtaliya | 16769 | 55.5 | 6% |
| =94. | Claude Bernard University Lyon 1 | Fransa | 27067 | 13.0 | 12% |
| =94. | University of Tsukuba | Yaponiya | 16514 | 13.0 | 19% |
| 97. | Roskilde University | Danimarka | 6034 | 14.5 | 9% |
| 98. | Southern Cross University | Avstraliya | 8298 | 32.4 | 18% |
| 99. | Florida International University | ABŞ | 32838 | 24.4 | 8% |
| 100. | RMIT University | Avstraliya | 31465 | 17.2 | 25% |


*Honkonq Elm və Texnologiya Universiteti*


*Lozanna Federal Politexnik Məktəbi*


*Nanyanq Texnologiya Universiteti*


*Mastrixt Universiteti*



*Koreya Qabaqcıl Elm və Texnologiyalar İnstitutu*